

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 39 (24.474)
11 oktyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycanın yüksəliş salnaməsini yaradan LİDER



## Azərbaycanın xoşbəxt gələcəyinə inanıram

***“Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır”***, – deyən, xalqına, vətəninə bağlılığı ilə seçilən Ulu Öndər Heydər Əliyev ölkəmizin ən ağır günlərində xalqın səsinə, çağırışlarına, Vətənin düşdüyü vəziyyətə biganə qala bilməyərək, həyatını təhlükəyə ataraq Bakıya qayıtdı və xalqın təkidli tələbi, səs çoxluğu ilə ölkə Prezidenti seçildi. Hakimiyyətə vəzifə üçün yox, xalqa xidmət etmək üçün gəldiyini dəfələrlə dilə gətirən dahi rəhbər bunu sübuta da yetirdi. Heydər Əliyevin seçdiyi düzgün strategiya və gələcəyə hesablanmış inamlı fəaliyyəti sayəsində Azərbaycan dövlətçiliyi məhv olmaqdan xilas oldu. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev dövlətçiliyimizi inkişaf etdirərək özü qədər inandığı və etibar etdiyi bir şəxsə, yeni əsrin yeni lideri İlham Əliyevə əmanət etdi. Dahi rəhbərin xalqına əmanəti olan siyasi varisini xalq öz övladı kimi bağrına basıb daim onun arxasında dayandı. Ulu Öndər məktəbinin ən istedadlı yetirməsi olan və 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirdi.

***Qafqazın ən güclü dövləti mövqeyinə gəldik***

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 22 il ərzində ölkə iqtisadiyyatı böyük inkişaf yolu keçib. 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi altında bir çox uğura imza atılıb, sosial-iqtisadi inkişaf yolunda mühüm nəticələr əldə edilib. Belə ki, dövlət başçısı 22 illik Prezidentliyi dövründə bütün sferalarda çevik islahatlar aparıb, Dövlət proqramları qəbul olunub. Düşünülmüş iqtisadi siyasət nəticəsində 22 ildə Azərbaycan iqtisadiyyatının, eləcə də sosial təminat sisteminin kifayət qədər güclənməsi müşahidə olunub. Ötən illər ərzində respublikamızın sosial-iqtisadi inkişafının sürətləndirilməsi daim diqqət mərkəzində saxlanılıb. Ölkə rəhbəri İlham Əliyevin Prezidentlik fəaliyyətində qəbul etdiyi ilk mühüm qərar da bu sahə ilə bağlı olub. Dövlətimizin başçısı tərəfindən “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 2003-cü il 24 noyabr tarixli Fərman imzalanıb və bununla da respublikanın hərtərəfli inkişafına dair davamlı və sistemli proqramların əsası qoyulub, sosial-iqtisadi inkişafın real dinamikası gerçəkləşdirilib. Adıçəkilən tarixi sənədin davamı olaraq Prezident İlham Əliyev 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə 4 Dövlət Proqramı imzalayıb. Bu proqramlar çərçivəsində 100 milyard manatdan çox investisiya qoyulub və nəticədə, regionların siması müasirləşib, əhalinin rifahı getdikcə yaxşılaşıb.

Ötən illər ərzində Ulu Öndər Heydər Əliyevin neft strategiyası uğurla davam etdirilib. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı, “Şahdəniz” yatağında ilk quyunun istismara verilməsi bu sahədəki inkişafı sübuta yetirdi. Sonrakı illərdə “Ümid”, “Babək” və “Abşeron” yataqlarının kəşfi ilə Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğu təsdiqləndi. Bununla da Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı. 2014-cü il sentyabrın 20-də isə Səngəçal terminalında “Cənub Qaz Dəhlizi” layihəsinin təməli qoyuldu. Dövlət başçısının gərgin fəaliyyəti və ardıcıl səyləri ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları yaradılıb. Bununla da dünyanın enerji xəritəsində yeni mənzərə formalaşıb. 2017-ci il sentyabrın 14-də isə Prezident İlham Əliyevin səyi ilə Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng Azəri-Çıraq-Günəşli neft yataqları blokunun 2050-ci ilə qədər işlənilməsində yeni dövr başlayıb. Nəhayət, 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracı reallaşıb.

Bir məqam da xüsusilə vurğulanmalıdır ki, irimiqyaslı neft və qaz layihələri ilə yanaşı, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi, 2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin və 2023-cü ildə Ələt Azad İqtisadi Zonasının açılışı ilə Azərbaycan və Bakı regionun ən böyük ticarət və logistika mərkəzinə, Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhliz nəqliyyat marşrutlarının mərkəzinə çevrilib. Həyata keçirilən genişmiqyaslı layihələr nəticəsində Azərbaycan regionda ən böyük mülki hava, Xəzər dənizində isə ən böyük dəniz yük donanmalarına malik ölkə kimi tanınıb. Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti sayəsində Azərbaycan bu gün qlobal proseslərin mənfi təsirindən minimum itkilərlə çıxan azsaylı ölkələrdən biri olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli strateji, enerji, nəqliyyat, logistika və kommunikasiya qovşağına, investorların maraq mərkəzinə çevrilib.

Səhifə ➡ 2

# Qəbələ Zirvəsi: dostluq, həmrəylik və tərəfdaşlıq görüşü




**2009-cu ilin oktyabrın 3-də qədim türk diyarı Naxçıvanda əsası qoyulan Türk Dövlətləri Təşkilatı 16 illik şərəfli inkişaf yolu keçərək regional və beynəlxalq əhəmiyyətli nüfuzlu təşkilata, eyni zamanda da siyasi, iqtisadi münasibətləri tənzimləyən əvəzolunmaz platformaya çevrilib. İdeyası türkdilli xalqlar arasında əsrlərboyu formalaşan siyasi, mədəni və hərbi həmrəyliyə söykənən TDT Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəfindən qurulub. Özbəkistan (2019) əsas, Macarıstan (2018), Türkmənistan (2021) və Şimali Kipr Türk Respublikası (2022) isə müşahidəçi üzv qəbul olunublar. İki il bundan öncə 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatına TDT-nin müşahidəçi statusu verilib. Yarandığı ilk dövrlərdən fərqli olaraq bu gün artıq qurumun gündəliyində təkcə mədəni və humanitar məsələlər deyil, strateji təhlükəsizlik, enerji siyasəti, texnologiya, nəqliyyat-logistika, kənd təsərrüfatı, kosmik tədqiqatlar və qlobal ticarət yolları üzərində nəzarət kimi olduqca vacib məsələlər də yer alır. Prezident İlham Əliyevin ötən il fevralın 14-də, andiçmə mərasimində səsləndirdiyi *“Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”* fikirləri Azərbaycanın bu birliyə verdiyi mənəvi və strateji dəyərin ən ali ifadəsidir. Oktyabrın 7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü də Azərbaycan liderinin bu ifadəsinin növbəti təntənəsi, eləcə də TDT-yə sədrliyin Qırğızıstandan Azərbaycana keçməsi və ölkəmizin təşkilatdakı liderlik missiyasının rəsmi təsdiqi, eləcə də təşkilatın gələcək fəaliyyətinə dair mühüm bəyanatların verilməsi, məsələlərin müzakirəsi ilə siyasi əhəmiyyətli tarixi hadisə kimi yadda qaldı.**

**Türk dünyasının gələcək konturlarının, ortaq strateji hədəflərinin və birgə fəaliyyət mexanizmlərinin müəyyən edilməsi baxımından təşkilatın Qəbələ Zirvəsi mühüm yol xəritəsi formalaşdırdı.**

Səhifə ➡ 4


Düşənbə sammiti: Azərbaycanın balanslı siyasəti və qəti mövqeyinin göstəricisi 3

Müzəffər Ordu ilk addımını Naxçıvanda atıb 9

Sərdar sarayının rəssamı 10




# Azərbaycanın yüksəliş salnaməsini yaradan LİDER

(əvvəli 1-ci səhifədə)

## Əhalinin rifahı artırılıb

Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. İqtisadiyyat etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır. Ölkəmizin iqtisadiyyatının illər ərzində inkişaf etdirilərək ən yüksək səviyyəyə gətirilməsi insanların gündəlik həyatına da sirayət edib. Sosial sahədə görülmüş işlər də göz qabağındadır. Belə ki, 2003-cü ildə Azərbaycanda minimum əməkhaqqı 9 manat idisə, indi 400 manatdır, o dövrdə minimum pensiya 20 manat idi, hazırda isə 320 manat təşkil edir. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 2024-cü il 23 dekabr tarixli Sərəncam vətəndaş rifahının təminatı məqsədilə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.

Ölkəmizdə əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri və idman kompleksləri istifadəyə verilir. Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir. Dövlət büdcəsində sosialyönümlü xərclərin ardıcıl və ciddi artımı da sosial dövlətin mühüm cəhətlərindən biri kimi diqqəti cəlb edir. Məsələn, bu xərclər 2021-ci ildəki 10,3 milyard manatdan 2024-cü il üçün 15,5 milyard manata çatıb. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 milyard və ya 1,6 dəfə artım olub. Sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha göstərir.

Sosial islahatların tərkib hissəsi kimi əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Buna nümunə olaraq əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 milyard manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 milyard manat təşkil edirdisə, hazırda 2,5 milyard manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən 130-a çatdırılıb. Bu gün ardıcıl olaraq həyata keçirilən islahatlar bizə deməyə əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

## Tapşırıq yerinə yetirildi

2003-cü ilin 15 oktyabr seçkilərində qazanılan qələbə xalqın öz taleyini hər zaman qəlbən inandığı, sınaqdan çıxardığı siyasi qüvvəyə etibar etdiyini bir daha təsdiqləmişdi. Həmin seçkidən sonra keçirilən andiçmə mərasimində Azərbaycan Prezidenti İlham Əliyev ilk dəfə ay-ulduzlu, üçrəngli Azərbaycan Bayrağının önündə Vətənə sədaqətlə xidmət edəcəyinə and içəndə, elə həmin gün söz vermişdi bu bayrağı Şuşada, Xocalıda ucaldacağına. Qarabağ kimi problemi olan, müstəqilliyin dadını təzə-təzə alan, özünü dünyaya tanıdıb haqq səsini duyurmağa çalışan bir dövlətin Prezidenti olmaq və Ulu Öndərin vəsiyyətini yerinə yetirmək kimi ağır bir yükü almışdı çiyinlərinə 42 yaşlı siyasətçi. Vətənə, doğma xalqına ləyaqətlə, sədaqətlə xidmət edəcəyinə and içəndə o da yaxşı bilirdi ədalətsiz bir dünyada yaşadığımızı. Güclünü haqlı görən bir dünyada. Lakin o, qətiyyətli və ümidli idi. İnanırdı ki, bu xalqla ən çətin yolları, keçilməz dərələri aşmaq mümkündür. Tarix öz sözünü dedi və zaman Ulu Öndərin bütün bəlalardan xilas edib ayağa qaldırdığı Azərbaycanı əmin əllərə əmanət etdiyini sübuta yetirdi. Dahi siyasətçinin layiqli davamçısı dünyada söz sahibindən, Müzəffər Sərkərdəliyə gedən uzun bir yol qət etdi. Bu yol Heydər yolu, Ata vəsiyyətinin yerinə yetirilməsinə gedən yol idi. Çətin, keçilməz sədləri birləşərək, bir olaraq aşdıq. Ölkə başçısı dünya səviyyəli tədbirlərdə dəfələrlə düşmən baş nazirinə tarix dərsi keçib qəti mövqeyini açıq şəkildə bəyan edirdi: ***"Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa olsun, azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir".*** Verdiyi hər bir sözə sadiqlik göstərən ölkə başçısı Ulu Öndərin siyasi kursunu davam etdirib Azərbaycanı dünyaya tanıtdı və söz sahibinə çevirdi.

## Müstəqil Azərbaycanın Şuşaya səfər edən ilk Prezidenti

30 ildir, həllini gözləyən bir problemi cəmi 44 gündə həll edən Müzəffər Komandanın "dəmir yumruğ"u düşmənin başında ildırım kimi çaxıb onu pərən-pərən saldı. Qələbə qazanıb müstəqil Azərbaycanın Şuşaya səfər edən ilk Prezidenti olmaq şərəfi qazanmaqla bərabər ən müqəddəs tapşırığı yerinə yetirdi. Bütün çıxışlarında işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən bəhs edən cənab İlham Əliyev onu da hər zaman xüsusilə vurğulayır ki, hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün prioritetdir. Dövlət başçısının bölgələrə səfərlərinin əksəriyyəti məhz azad edilmiş əraziləri əhatə edir. Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-yenidənqurma işlərinin plan üzrə getdiyini vurğulayan cənab İlham Əliyev onu da bildirir ki, Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha göstərir ki, biz – bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. İşğaldan azad edilmiş ərazilərdə yeni idarəetmə institutunun yaradılması ilə bağlı addımlar atılır. Yeni iqtisadi və sosial çağırışların müzakirə edildiyi məkan, innovasiyalar ölkəsi kimi nüfuz qazanan Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açılır. Cənab İlham Əliyevin 2022-ci il 22 iyul tarixli "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" Sərəncamı da özündə hədəflərə çatmaq üçün icra mexanizmlərini və nəzarəti ehtiva edir.

## Sədaqət nümunəsi

Tarix bu xalqın necə qəhrəman bir xalq olduğuna şahid olanda, bütün dünya Azərbaycan əsgərinin cəsarəti qarşısında heyrətə gələndə, Şuşada, Xankəndidə zəfər himni səslənəndə şahid olduq bu xalqın əbədi liderinin əmanətinə nə qədər sədaqətli olduğuna. Və bayrağımız Şuşanın başı üstündə dalğalananda, Xocalıya ədaləti özümüz gətirəndə, Xankəndidə addımlayan Azərbaycan əsgərinin ayaq səsləri dünyanın hər yerində eşidiləndə, Zəngilanda, Füzulidə, Cəbrayılda körpə səsi gələndə dahi rəhbərin layiqli davamçısının müdrik rəhbərliyi ilə görülən işləri təkcə biz yox, dünyanın müxtəlif yerlərində yaşayan 50 milyondan çox soydaşlarımız da gördü və sülhün, əmin-amanlığın hökm sürdüyü məkana çevrilmiş, iqtisadi göstəricilərinə görə daim qüdrətlənən Azərbaycan dövləti ilə bir daha fəxr hissi duydular. Bu gün Azərbaycan dövlətinin sərhədləri daxilində yaşayan insanlar gündən-günə inkişaf edən ölkənin vətəndaşları olaraq gələcəyə ümidlə baxır, verdiyi hər sözü yerinə yetirən ölkə başçısına sədaqət nümayiş etdirirlər.

Elə məhz bunun nəticəsidir ki, keçirilən bütün prezident seçkilərində xalqın seçimi, layiqli namizəd cənab İlham Əliyev oldu. Seçkilərdə səs çoxluğunun illər keçdikcə artması isə onu bir daha sübuta yetirdi ki, xalqın səsi hər bir azərbaycanlının Prezidenti, Ulu Öndərin layiqli davamçısıdır. Diqqət etsək görürük ki, 2003-cü ildə prezident seçkilərində cənab İlham Əliyev 70 faiz səs çoxluğu ilə ölkə başçısı seçilmişdisə, ondan sonrakı seçkilərdə bu rəqəm artmış və 2024-cü ilin fevralında keçirilən seçkilərdə 92,12 faiz səs çoxluğu ilə Zəfər seçkisinin qalib Sərkərdəsi olmaq şərəfinə nail olmuşdur. Bu nəticə həm dövlət başçısının, həm də bir xalqın Azərbaycanı canından çox sevən Ümummilli Liderinə sədaqəti idi. Və müstəqillik qazandıqdan sonra yaşadıqlarımız bir daha sübut edir ki, bu xalqın ən düzgün yolu Heydər Əliyev yoludur. Bir vaxtlar Naxçıvandan başlayan və Şuşaya, Xankəndiyə qədər uzanan yol bizi bundan sonra da zəfərdən-zəfərə aparacaq.

**Ramiyə ƏKBƏROVA**

# Düşənbə sammiti: Azərbaycanın balanslı siyasəti və qəti mövqeyinin göstəricisi




*Azərbaycan Vətən müharibəsində qazandığı tarixi zəfərlə regionun geosiyasi mənzərəsini tamamilə öz xeyrinə dəyişməklə həm də mövcud əməkdaşlıq əlaqələrini də yeni inkişaf müstəvisinə daşıya bilib. Bu kontekstdə ölkəmizin 70 il eyni ittifaqda birləşdiyi və 1991-ci ildə yaradılan Müstəqil Dövlətlər Birliyi (MDB) üzvləri ilə həm vahid platforma olaraq irəli sürdüyü ideyaları, həm də eyni zamanda ayrı-ayrılıqda regional hadisələrə yön verəcək faydalı münasibətləri xüsusi vurğu gərəkdirir. İstər Rusiya Federasiyası və Özbəkistanla imzalanan müttəfiqliyə dair bəyannamə, müqavilə, istərsə də digər üzv ölkələrlə müxtəlif, xüsusən iqtisadiyyat, ticarət, mədəniyyət, humanitar, elm və digər sahələrdə uğurlu əməkdaşlıqlar Azərbaycanın qazandığı siyasi karizmaya, uğurlu diplomatiyaya olan sarsılmaz etimaddan, hörmətdən irəli gəlir. Mütəmadi olaraq keçirilən Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasları həm birlik olaraq vahid fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, həm də ikitərəfli əlaqələrin yeni perspektivlərinin açılması baxımından faydalı müzakirələrlə yadda qalır. Okyabrın 10-da Tacikistanın Düşənbə şəhərində keçirilən növbəti sammit və sammit çərçivəsində keçirilən ikitərəfli görüşlər Azərbaycan dövlətinin çoxvektorlu, balanslı siyasətinin və Prezident İlham Əliyevin qətiyyətinin növbəti göstəricisinə çevrildi.*

Düşənbə sammiti Azərbaycan və Rusiya liderinin təkbətək görüşünün timsalında Azərbaycan diplomatiyasının regional çərçivəyə sığmayan beynəlxalq miqyaslı uğuru kimi müasir siyasi tariximizə həkk olundu. Sammit çərçivəsində iki ölkə prezidentlərinin dialoqu zamanı səsləndirilən fikirlər Azərbaycan ictimaiyyətinin dərin narahatlığına səbəb olan, ötən ilin dekabr ayında AZAL-ın təyyarəsinin vurulması məsələsinə tam aydınlıq gətirməklə, ikitərəfli əlaqələrdə soyuqluğun aradan qaldırılmasına, müsbət dinamikanın yaranacağına əminlik yaratdı. Putin ilk dəfə olaraq Rusiyanın hava hücumundan müdafiə sistemlərinin bu faciəyə səbəb olduğunu etiraf etdi, istintaqın gedişatına uyğun əldə olunan nəticələri açıqladı və məsuliyyəti öz üzərinə götürərək faciəyə hüquqi qiymət veriləcəyini bildirdi. O, əvvəlki bəyanatlarında faciənin mahiyyətinə ötəri münasibət göstərsə də, bu dəfə məsuliyyəti tam qəbul edərək Azərbaycan tərəfinə açıq şəkildə üzrünü bəyan etməyi bacardı: “Görüşümüzə daha həssas mövzu – bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz, sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk”.

Azərbaycan və Rusiya dövlət başçılarının görüşünə Prezident İlham Əliyevin əsl lider qətiyyəti, özünəməxsus jest və mimikaları damğa vurdu desək, yanılmarıq. Bəli, Azərbaycan liderinin faciənin baş verdiyi andan etibarən xalqımızın milli maraqlarına uyğun davranışı, qətiyyətli addımlar atması, kəskin bəyanatlar verməsi, dönməz mövqeyi faciənin ört-basdır olunmasına imkan vermədi. Vladimir Putinin görüş zamanı səsləndirdiyi “Hətta düzünü desək, bu gün gecə Moskvaya zəng etdim və əlavə hər hansı detalların olduğunu soruşdum. Demək olar ki, Sizə mənə məlum olanların hamısını danışdım” fikirləri bunu bir daha sübut edir. Və Rusiya liderinin ikitərəfli görüş müddətində münasibətləri əvvəlki məcrasına qaytarmaq cəhdləri, sərgilədiyi jestlər Prezident İlham Əliyevin ***“Yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur”*** ideyasının əyani təntənəsidir.

MDB-nin həm təşkilat səviyyəsində, həm də ayrı-ayrılıqda üzvlərinin əksəriyyəti hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini birmənalı olaraq dəstəkləyib. Vətən müharibəsindən sonra həyata keçirilən Böyük Qayıdış prosesində təşkilat üzvləri yaxından iştirak etməyə can atır, Qarabağda, Şərqi Zəngəzurda gedən genişmiqyaslı tikinti-quruculuq işlərinə



də öz töhfələrini verirlər. Ötən dövrdə Füzulidə Mirzə Uluqbəy adına məktəbin, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Manas adına məktəbin, Xankəndi tikiş fabrikinin istifadəyə verilməsi, eləcə də bu il oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü çərçivəsində Füzulidə məscidin təməlinin qoyulması sarsılmaz qardaş dəstəyinin və mehriban münasibətlərin göstəricisidir. Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət, Gəncənin isə idman paytaxtı elan edilməsi və III MDB Oyunlarının respublikamızda təşkili birlik üzvlərinin ölkəmizə olan yüksək hörmət və etimadından xəbər verir. Prezident İlham Əliyev Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı zamanı ölkəmizin şəhərlərinin ali status qazanmasını, III MDB Oyunlarının təşkilini yüksək dəyərləndirdi, bu qəbildən tədbirlərin MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirdiyini, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək etdiyini vurğuladı.



Ümumilikdə, oktyabrın 10-da Tacikistanın paytaxtı Düşənbədə keçirilən Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası və iclas çərçivəsində baş tutan ikitərəfli görüşlər Azərbaycan dövlətinin prinsipial mövqeyinin ortaya qoyulması, eləcə də üzv respublikalarla münasibətlərin müsbət dinamikada davam etdiyini göstərdi. Düşənbə sammiti bir daha sübut etdi ki, regionda bütün ictimai-siyasi hadisələr respublikamızın nəzarəti altında cərəyan edir və hər hansı təşəbbüsün, o cümlədən ideyanın, layihənin reallaşması üçün Azərbaycanın iştirakı, razılığı vacib amildir.

**“Şərq qapısı”**




# Qəbələ Zirvəsi: dostluq, həmrəylik və tərəfdaşlıq görüşü

## *TDT-nin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacib amildir*

*(əvvəli 1-ci səhifədə)*

TDT-yə üzv və müşahidəçi statusuna malik ölkələrin dövlət və hökumət başçıları Azərbaycanın tarixiliklə müasirliyi bir arada cəmləşdirən bu şəhərində bir araya gələrək sonuncu görüşdən bəri həyata keçirilmiş işləri dəyərləndirdi, əldə olunmuş nailiyyətləri müzakirə edərək gələcək əməkdaşlıq istiqamətlərini ortaya çıxardılar. "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunan Zirvə görüşündə yeni təşəbbüslərin irəli sürülməsi, ortaq qərarların qəbul edilməsi və Türk dünyasının gələcək inteqrasiyasına dair strateji müzakirələrin aparılması üçün mühüm imkanlar yaradıldı. Sülhün və təhlükəsizliyin müzakirə predmetinə çevrilməsi onu göstərir ki, TDT artıq təkcə iqtisadi münasibətləri tənzimləmir, mədəni dialoqu dərinləşdirmir, həm də regionda siyasi, hərbi güc balansını özündə cəmləşdirməyi, vahid konsepsiya əsasında respublikaların təhlükəsizliyinin əsas təminatçısına çevrilməyi hədəfləyib. Qəbələ kimi, dövlətçilik tarixinə malik bir şəhərdə bu məsələ ətrafında fikir mübadiləsinin aparılması isə Azərbaycanın Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar, sülh mühiti fonunda həm də türk həmrəyliyini ortaya qoyaraq yeni diplomatiya modeli formalaşdırdığını sübut etdi. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı təşkilatın maraq dairəsində olan bütün incə məqamlara xüsusi toxundu, sülh və təhlükəsizliyi hər bir ölkənin inkişafı üçün əsas amil kimi dəyərləndirdi, bu xüsusda TDT-nin vahid güc mərkəzi kimi çıxış etməsinin vacib olduğunu vurğuladı. Sitat: ***"Hörmətli həmkarlar, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir. Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinin və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir".***

## *Azərbaycan türk dövlətləri arasında sülh, təhlükəsizlik və əməkdaşlıq körpüsü salır*

Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşünün əsas mövzusu sayılan regional sülh və təhlükəsizlik məsələsi Azərbaycan dövləti üçün hər zaman bir nömrəli məqsəd və hədəflərdən hesab olunub. Respublikamızın bu baxımdan həm Vətən müharibəsindən öncə, həm də sonrakı dönəmdə mühüm təşəbbüs və layihələrinə diqqəti çəkmək yetərlidir ki, həmin məqsəd və hədəflər tam aydınlaşsın. Bəli, bu gün Azərbaycanın müəllifi olduğu və bilavasitə razılığı, iştirakı əsasında reallaşan nəhəng nəqliyyat-logistika layihələri təkcə iki qitəni – Avropa və Asiyanı birləşdirmir, həm də Türk dünyasını bir araya gətirir, regionda davamlı sülh, təhlükəsizlik və faydalı əməkdaşlığa geniş qapılar açır. Bu xüsusda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, digər bir adla desək, Orta Dəhlizin imkanları böyük rol oynayır. Respublikamız bu dəhlizin önəmli hissələrindən biri, o cümlədən də müasir nəqliyyat infrastrukturuna malik tranzit ölkə kimi türk dövlətləri arasında iqtisadi münasibətləri ilbəil daha da dərinləşdirir, ticarət əlaqələrinə mühüm töhfələr verir.

Orta Dəhlizin əsas hissələrindən biri də Azərbaycanı Türkiyə və Türk dünyası ilə birləşdirən strateji nəqliyyat layihəsi – 2017-ci il oktyabrın 30-da istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yoludur. O həmin yoldur ki vaxtilə bəzi dövlətlər iqtisadi səmərəsinin aşağı olacağını irəli sürür, hər vəchlə çəkilişinə maneə olmağa çalışırdılar. Lakin ötən qısa zaman kəsiyində beynəlxalq və regional əhəmiyyətli ictimai-siyasi proseslər, layihə üzrə maraqların gün ötdükcə daha böyük mənada kəsişməsi Prezident İlham Əliyevin "Bakı-Tbilisi-Qars dəmir yolu tək ölkələri deyil, qitələri birləşdirəcək. Azərbaycanın irəli sürdüyü layihələrin heç biri uğursuz olmayıb" ideyasında haqlı olduğunu bariz şəkildə ortaya qoydu. Nəticə etibarilə, bu gün bir sıra inkişaf etmiş ölkələr, o cümlədən TDT-yə üzv respublikalar Azərbaycan ərazisindən keçən yüklərin Mərkəzi Asiyadan Avropaya və əks-istiqamətə BTQ ilə daşınmasına böyük maraq göstərirlər. Artan ticarət imkanları nəzərə alınaraq 2024-cü ildə aparılan modernləşdirmə işlərindən sonra dəmir yolunun illik yükdaşıma qabiliyyəti 5 milyon tona yüksəldilib.

Xəzərin ən böyük ticarət donanması sayılan Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər infrastrukturlar Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirməklə həm də Orta Dəhlizin yükaşırma qabiliyyətini xeyli artırıb. Təsadüfi deyildir ki, son illərdə bu dəhliz üzrə yükdaşımaların həcmi 8 dəfə artıb. Müqayisə üçün bildirək ki, əgər 2021-ci ildə daşınan yüklərin həcmi 560 min ton idisə, 2024-cü ildə bu rəqəm 4,5 milyon tona çatıb. Bu il üçün proqnoz 4,9 milyon tondur, 2029-cu ilə qədər isə yükdaşımaların 10 milyon tona çatacağı gözlənilir. Dünya Bankının proqnozuna əsasən 2030-cu ilə qədər Orta Dəhlizlə yükdaşımaların həcmi 3 dəfə artacaq. Bu mühüm layihədə birləşdirici funksiya daşıyan, başqa sözlə, Asiya-Avropa ticarət əlaqələrinə körpü salan Azərbaycan həm özü üçün, həm də Türk dünyasının birliyi naminə Orta Dəhlizin iqtisadi, ticari əhəmiyyətini xeyli artırmaq üçün qətiyyətli addımlar artmaqdadır. Bu dəhliz ölkələrə yalnız ticarət daşınmalarından yaxşı gəlirlər qazandırmır, eyni zamanda sahibkarlığın, özəl sektorun, turizmin inkişafı üçün əlverişli biznes mühiti yaradır, geniş imkanlar açır.

Azərbaycan Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar fonunda bu il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalarla bölgəyə yalnız sülh deyil, həm də yeni faydalı əməkdaşlıq mühiti qazandırmaqdadır. Bu baxımdan, gələcəkdə Orta Dəhlizin mühüm seqmentlərindən biri kimi çıxış edəcək Zəngəzur dəhlizinin açılması Türk dünyasını daha sıx birləşdirməklə həm də TDT-nin siyasi, iqtisadi nüfuzunu xeyli gücləndirəcək. Prezident İlham Əliyev Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə Azərbaycanın nəqliyyat-logistika imkanlarının region ölkələri, xüsusilə də TDT üzvləri üçün önəmli rol oynadığını vurğuladı, Zəngəzur dəhlizinin mühüm nəqliyyat dəhlizləri çərçivəsində ikinci marşrut xətti kimi mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı: ***"Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir".***

Türk dünyasının, region əhalisinin təhlükəsiz yaşayışının və dövlətlərarası uzunmüddətli əməkdaşlığın təmini baxımından digər bir istiqamət kimi, respublikamızın müəllifi olduğu enerji layihələri önəmli rola malikdir. Bəli, Azərbaycan bu gün 14 ölkənin mavi yanacağa olan tələbatını ödəməklə coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında liderdir. Ötən il COP29 kimi ümumbəşəri missiya daşıyan nəhəng konfransa layiqli ev sahibliyi etməklə respublikamız müasir çağırışlara cavabını ən inamlı və qəti şəkildə verib. "Yaşıl enerji" gündəliyi kifayət qədər geniş və əhatəli olan Azərbaycan günəş, külək və su elektrik enerjisi kimi bərpa olunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. Nəticə etibarilə, 2030-cu ilə qədər enerji istehsalının, təxminən, 40 faizinin bərpa olunan mənbələr hesabına təmin ediləcəyi nəzərdə tutulub. Hazırda ölkəmiz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa "yaşıl enerji" dəhlizi üzərində işləyir ki, bu da, təbii ki, Türk dünyasını sağlam gələcəyə dair vahid məqsəd ətrafında birləşdirməklə TDT-yə inamın artmasına xidmət edəcək. Ümumiyyətlə, respublikamız təşkilata üzv ölkələrlə birgə hərbi, mədəni, sosial, iqtisadi sahələrdə birgə uğurlu layihələrə imza atmaqdadır. Bu xüsusda Türkiyə iqtisadiyyatına qoyulmuş nəhəng sərmayeni, eyni zamanda Azərbaycan-Özbəkistan, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan birgə sərmayə fondları əsasında reallaşdırılan layihələri diqqətə çəkmək olar. Bütün bunlar Türk dünyası daxilində iqtisadi inteqrasiyanın güclənməsinə, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələr arasında əməkdaşlığın dərinləşməsinə və regionun dayanıqlı inkişafına misilsiz töhfələr verir.

Dünyada artan müharibə, münaqişə və təhdidlərin fonunda TDT-yə üzv ölkələrin müstəqil siyasət yürütməsi, ərazi bütövlüyü və təhlükəsizliyi məsələsi də ön plana çıxır. Hərtərəfli müstəqilliyin, ərazi bütövlüyünün qorunması baxımından, təbii ki, hərbi əməkdaşlıq məsələləri ölkələrin qarşısında duran vacib məqsədlərdən biridir. Birgə hərbi əməkdaşlığa dair kontraktların imzalanması, təlimlərin keçirilməsi həm orduların peşəkarlığının artırılması, həm də təhdidlər fonunda güc nümayişi kimi mütərəqqi addımdır. Məhz bu nöqteyi-nəzərdən də Qəbələ Zirvəsinin əhəmiyyəti, rolu yaxın gələcəkdə özünü bariz şəkildə göstərəcək.

Zirvə görüşündə çıxışı zamanı Prezident İlham Əliyev ölkələr arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığın çox önəmli amillərdən biri olduğunu dedi və bu xüsusda 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi.

Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü Türk dünyasının birliyinin, həmrəyliyinin mühüm göstəricisi olmaqla paralel regional sülhün və təhlükəsizliyin təmini baxımından gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində böyük rol oynadı. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinin davamı kimi, builki Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunması Azərbaycanın təşkilatın nüfuzunun artırılmasında, təsir dairəsinin böyüməsində olduqca güclü, qəti mövqe ortaya qoyduğunu göstərir. Başqa sözlə, Qəbələ Zirvəsi dostluq, həmrəylik və tərəfdaşlıq görüşü, vahid iqtisadi güc və siyasi nailiyyət zirvəsi oldu. Zirvə görüşü ilə bağlı imzalanan Bəyannamə isə gələcək birgə fəaliyyətin vahid yol xəritəsi rolunu icra etməklə ölkələrarası dostluğu və qardaşlığı həm siyasi, həm iqtisadi, həm də mədəni müstəvidə xeyli gücləndirəcək.



**Nail ƏSGƏROV**

# Səlahiyyətli nümayəndə “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun idmançı və məşqçi heyəti ilə görüşüb





Oktyabrın 7-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun idmançı və məşqçi heyəti ilə görüşüb.

Səlahiyyətli nümayəndə klubun heyətini doğma Naxçıvanda məmnunluqla salamlayıb, komandanın son illər qazandığı nailiyyətlərin, göstərdiyi peşəkarlıq və əzmkarlığın muxtar respublikanın idman həyatında qürurverici səhifə açdığını bildirib.

Son illər ölkəmizdə futbol sahəsində əldə olunan nailiyyətlərdən söz açan Fuad Nəcəfli vurğulayıb ki, bu uğurlar təsadüfi deyil. Çünki idmanda təsadüflər olmur. Hər bir qələbə əzmin, iradənin və birliyin nəticəsidir. “Qarabağ” futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması və keçirdiyi oyunlarda inamlı qələbələri Azərbaycan futbolu üçün tarixi hadisədir. Eyni zamanda 2024-2025-ci mövsümdə “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun Azərbaycan Premyer Liqasını 3-cü yerdə başa vurması, tarixində ilk dəfə Avropa meydanlarına çıxması, UEFA Konfrans Liqasının seçmə mərhələlərində inamlı çıxışı həm komandanın peşəkarlığının, həm də ölkə futbolunun dirçəlişinin göstəricisidir. Komandamızı dəstəkləyən minlərlə futbolsevər bu gün “Araz-Naxçıvan”ın oyunlarını böyük fərəhlə izləyir.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində həyata keçirilən layihələr, eləcə də Naxçıvan şəhərinin yeni Baş planı barədə məlumat verən səlahiyyətli nümayəndə qeyd edib ki, bir neçə il sonra Naxçıvan tamamilə dəyişəcək. Təmsilçimizin ev oyunlarını doğma meydanda keçirməsi üçün mövcud stadionun yenidən qurulması, həmçinin yeni idman kompleksinin inşası nəzərdə tutulur. Yeni layihədə futbolçular üçün ən müasir idman infrastrukturunun, idmançı ailələri üçün isə yüksək yaşayış şəraitinin qurulması öz əksini tapacaq. Bu layihələr gerçəkləşdikdən sonra “Araz-Naxçıvan”ın hər bir oyunçusu komandamızın uğurları üçün doğma meydanda mübarizə aparacaq.



Özünü “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun bir üzvü kimi hiss etdiyini deyən Fuad Nəcəfli bundan sonra da komandaya dəstəyini əsirgəməyəcəyini qeyd edib, klubun hər bir üzvünə möhkəm cansağlığı, yeni qələbələr və komandaya uğurlu mövsüm arzulayıb.

Naxçıvan Futbol Federasiyasının prezidenti Zaur Axundov futbolçularla səmimi görüşə və göstərilən dəstəyə görə minnətdarlıq edib, Naxçıvan futbolunun inkişafı uğrunda bundan sonra da səylə çalışacaqlarını bildirib.

Futbolçulardan Felipe Santos və Qara Qarayev görüşün heyətə yüksək ruh və motivasiya bəxş etdiyini vurğulayıblar. Komanda üzvləri qeyd ediblər ki, uzun illər ölkənin yüksək liqasından ayrı qalan Naxçıvan futbolu qısa zamanda böyük uğurlarla bu həsrətə son qoydu. Ev oyunlarının yerli azarkeşlərin qarşısında keçirilməsi komandanın inkişafı baxımından vacibdir. Futbolçular tezliklə bu problemin də aradan qaldırılacağına inamını ifadə edib, çoxsaylı azarkeşlərin qarşısında mübarizə aparmağı səbirsizliklə gözlədiklərini bildiriblər.

Sonda “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun baş məşqçisi Elmar Baxşıyev səlahiyyətli nümayəndəyə forma və imzalı top hədiyyə edib, klub üzvləri ilə xatirə fotosu çəkdirilib.

# Səlahiyyətli nümayəndə şəhid övladları ilə görüşüb

Oktyabrın 8-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid övladları ilə görüşüb.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam bərpa edib. Bu gün işğaldan azad edilən torpaqlarımızın hər birində geniş quruculuq işləri aparılır. Bütün bunlar Vətən müharibəsində mətanətlə döyüşmüş şəhid və qazilərimizin hünəri, qəhrəmanlıqları sayəsində əldə olunub. Şəhidlərin əmanətlərini göz bəbəyi kimi qorumaq xalqımızın mənəvi borcudur. Dövlətimiz bundan sonra da şəhid ailələrinə diqqət və qayğısını əsirgəməyəcək.

Şəhid övladlarını yeni tədris ilinin başlanması münasibətilə təbrik edən Fuad Nəcəfli uşaqlara yaxşı təhsil almağı, atalarının öz qanları ilə əmanət qoyub getdikləri doğma Vətənin gələcəyi naminə layiqli vətəndaş kimi böyüməyi tövsiyə edib.

Səmimi keçən görüşdə şəhid övladları yeni tədris ili ilə bağlı təəssüratlarını bölüşüb, Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər söyləyiblər.

Səlahiyyətli nümayəndə uşaqların suallarını cavablandırıb, onlara hədiyyələr təqdim edib, hər biri ilə xatirə fotoları çəkdirib.









# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib





Oktyabrın 10-da Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və energetika naziri Pərviz Şahbazov Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, mədəniyyət naziri Adil Kərimli və energetika naziri Pərviz Şahbazov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

# Naxçıvan Muxtar Respublikasında “Yaşıl enerji zonası” konsepsiyası təqdim olunub





Oktyabrın 10-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafı məqsədilə bir sıra prioritet istiqamət müəyyənləşdirib. Bunlardan biri də muxtar respublikanın zəngin enerji resurslarından səmərəli istifadə və “yaşıl enerji zonası” üzrə layihələrin icrasıdır. Hazırda icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da bu istiqamətdə müvafiq layihələr öz əksini tapıb. Həmçinin dövlət başçısının 2024-cü il 23 dekabr tarixli Sərəncamına əsasən Naxçıvanda yeni istilik elektrik stansiyası tikiləcək. Naxçıvanın mövcud alternativ və bərpa olunan enerji resursları bu layihələrin icrasına, eləcə də enerji ixracı imkanlarının təmin edilməsinə geniş imkanlar açır.

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov görüşdə qeyd edib ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının energetika sistemi yenilənir və daha da təkmilləşdirilir, bərpaolunan enerji istehsalı və ixracı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Nazir qeyd edib ki, Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvan hərtərəfli inkişaf edəcək, muxtar respublikanın enerji təhlükəsizliyi təmin ediləcək, bu diyar Avrasiyanın mühüm enerji qovşağına çevriləcək.

Görüşdə Naxçıvan Muxtar Respublikasında “Yaşıl enerji zonası” konsepsiyası təqdim olunub. Konsepsiya əsasında Naxçıvanın “yaşıl enerji zonası”na çevrilməsi, muxtar respublikada yeni elektrik stansiyalarının inşası və enerji ixracı layihələrinin icrası ilə bağlı görüləcək işlər diqqətə çatdırılıb. Qeyd edilib ki, konsepsiya bərpaolunan enerjinin istifadəsinin genişləndirilməsi, enerji müstəqilliyinin və dayanıqlı inkişafın təmin olunması, müasir şəbəkə infrastrukturunun qurulması,




enerji ixracı imkanlarının genişləndirilməsi, karbon emissiyasının əhəmiyyətli dərəcədə azaldılması, innovativ texnologiyaların tətbiqi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi və yeni iş yerlərinin yaradılması kimi hədəfləri özündə ehtiva edir. Ötən dövrdə aparılan mövcud vəziyyətin təhlili onu deməyə əsas verir ki, Naxçıvan bu layihələrin icrasını şərtləndirən zəngin günəş, külək, hidro və bioenerji resurslarına malikdir.

Həmçinin Naxçıvan Muxtar Respublikasından enerji ixracının konseptual istiqamətlərinə dair təqdimat edilib. Müzakirələr zamanı Naxçıvandan elektrik enerjisinin müxtəlif marşrutlar üzrə ixracının bölgəni strateji enerji qovşağına çevirmə potensialı vurğulanıb. İclasın yekununda bu iqtisadi rayonun enerji sisteminin inkişafı istiqamətində növbəti addımlar müəyyənləşdirilib və müvafiq tapşırıqlar verilib.

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə və məhkəmə orqanlarında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə**

Qarayev Sənan Məmməd oğlu
Qaybalıyev Vüsal Rəhim oğlu

**“Rəşadətli əməyə görə” nişanı ilə**

Axundlu Nihad Rəşadət oğlu
Əlizadə Turac Məhəmməd qızı
Hüseynbəyli Məftunə Firəddin qızı
İmanova Ayşən Natiq qızı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 7 oktyabr 2025-ci il*

## Naxçıvanda 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü qeyd olunub



*Tədbir iştirakçıları ilk öncə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.*

Naxçıvan Hərbi Kollecinin konfrans zalında davam edən tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri Tarverdi Məmmədov, Naxçıvan Qızlar Liseyinin direktoru İlahə Fərəcova çıxış edərək bu şərəfli yolda səylə çalışan pedaqoqları təbrik edib, onlara peşə fəaliyyətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil strategiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son illərdə Naxçıvanda təhsil sahəsində uğurlu nəticələr əldə olunub. Diqqətə çatdırılıb ki, müəllimlərimizin yorulmaz səyləri sayəsində 2025-ci tədris ili şagird nailiyyətləri baxımından Naxçıvan təhsili üçün ən uğurlu illərdən olub. Belə ki, buraxılış və qəbul imtahanlarında şagirdlərimiz tərəfindən son 30 ilin ən yüksək nəticələri əldə edilib.





Tədbirdə təhsil sahəsində səmərəli fəaliyyətinə görə bir qrup müəllimə Elm və Təhsil Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin fəxri fərmanları, təhsil sahəsində səmərəli fəaliyyətinə və gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiyinə görə məktəblərin kollektivlərinə təşəkkürnamə, “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunan müəllimlərə nişan və vəsiqələr təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

## Naxçıvan şəhəri BMT-nin Merlər Forumunda təmsil olunub




İsveçrənin Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE) tərəfindən 5-ci Merlər Forumu keçirilib.

Forumda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxış edərək Naxçıvanda insanların sağlamlığı və rifahının əsas prioritetlərdən olduğunu bildirib. Qeyd edib ki, bu gün Naxçıvan şəhərinin yeni Baş planı dünyanın aparıcı şəhərsalma şirkətlərindən biri olan “Chapman Taylor” tərəfindən hazırlanır. Bu plan şəhəri daha sağlam, yaşıl və əlçatan etmək üçün müasir şəhərsalma həllərinə yönəlib. Yeni parklar, yaşıllıqlar, ictimai yerlər, velosiped zolaqları və piyada yolları bu planın bir hissəsidir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın muxtar respublikanın gələcək inkişafındakı mühüm rolundan, Dövlət Proqramına əsasən Naxçıvan şəhərində aparılan abadlıq-quruculuq tədbirlərindən, yeni çoxmənzilli yaşayış binalarının tikilməsindən, Naxçıvan şəhərinin ictimai nəqliyyat sistemini daha da yaxşılaşdırmaq üçün 60 yeni elektrobusun alınacağından, yeni enerji doldurma məntəqələrinin və depoların tikiləcəyindən bəhs edib.

Cabbar Musayev vurğulayıb ki, Zəngəzur dəhlizinin yaratdığı yeni logistik imkanlar Naxçıvan şəhərinin inkişafına, daha sağlam, yaşıl və firavan gələcəyin qurulmasına xidmət edəcək. O qeyd edib ki, bu dəhliz regionun iqtisadi potensialını gücləndirməklə yanaşı, müasir və dayanıqlı şəhər modelinin formalaşmasına da töhfə verəcək. Zəngəzur dəhlizi Naxçıvanı birbaşa Azərbaycanla birləşdirəcək və Asiya ilə Avropa arasında əsas beynəlxalq nəqliyyat marşrutlarına inteqrasiya olunacaq. Bu, Naxçıvan şəhərini logistika mərkəzinə çevirəcək, yeni investisiyalar gətirəcək, yeni iş yerləri yaradacaq və regional əməkdaşlığı gücləndirəcək.

Qeyd edək ki, Merlər Forumu dövlət və şəhər rəhbərlərinin, beynəlxalq təşkilatların və ekspertlərin iştirakı ilə şəhərlərin dayanıqlı inkişafı, ekoloji davamlılıq, yaşayış mühitinin yaxşılaşdırılması və şəhər idarəçiliyinin müasir modelləri mövzularında fikir mübadiləsi aparmaq məqsədi daşıyır. Beynəlxalq forumda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayevlə birlikdə Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov da iştirak edib.

## Ədalət prinsipi ilə çalışan bütün həmkarlarım adından bu yüksək təltifi qəbul edirik

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 7 oktyabr tarixli "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında" Sərəncamı ilə məhkəmə orqanlarında səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilib. Biz də həmin şəxslərin bir neçəsinin təəssüratlarını öyrəndik.

"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatının Analitik və məhkəmə statistikasının aparılması şöbəsinin müdiri ***Vüsal Qaybalıyev*** qeyd etdi:



"22 ildir ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində çalışıram. Bu gün mənim üçün olduqca qürurverici və məsuliyyətli bir gündür. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə və məhkəmə orqanlarında fəaliyyətimə verilən yüksək qiymətin təcəssümü olaraq "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunmaq mənim üçün böyük şərəfdir.

Bu yüksək mükafata layiq görülmək, ilk növbədə, mənə göstərilən etimadın və dövlətimizin hüquq sisteminə verdiyi dəyərin təzahürüdür. Mən bu təltifi hüquq sahəsində vicdanla, peşəkarlıqla çalışan bütün həmkarlarım adına qəbul edirəm. Göstərilən etimada və diqqətə görə dərin minnətdarlığımı bildirirəm. Bu mükafat mənim üçün yalnız keçmiş fəaliyyətimin qiymətləndirilməsi deyil, həm də gələcək işlərimə ruh verən, məsuliyyətimi artıran, dövlətimə və xalqıma xidmət borcumu bir daha xatırladan müqəddəs bir amildir. Bu gün müstəqil Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının hüquq sistemində şəffaflıq, qanunun aliliyi, ədalət prinsiplərinin qorunması prioritet vəzifələrdəndir. Biz hüquqşünaslar bu prinsipləri rəhbər tutaraq hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunması naminə var gücümüzlə çalışmaqda davam edəcəyik. Bu təltifi qəbul edərkən bir daha anlayıram ki, dövlətə, cəmiyyətə və ədalətə xidmət etmək şərəfli və məsuliyyətli bir missiyadır".

"Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan ***Turac Əlizadə*** bildirdi:



"Artıq 10 ildir ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində çalışıram. Bu il məhkəməmizin 100 illik yubileyi qeyd olunur, böyük qürur hissi və fəxrlə bildirirəm ki, Ali Məhkəmənin 100 illik yubileyi münasibətilə təltif olunan şəxslərdən biriyəm. Mənə göstərilən etimada, fəaliyyətimi qiymətləndirdiyinə, eyni zamanda öz vəzifələrimizi layiqincə yerinə yetirməyimizə şərait yaratdığına görə dövlətimizə minnətdarlığımı bildirirəm. Bu təltif yalnız mənim üçün deyil, eyni zamanda çiyin-çiyinə çalışdığım bütün həmkarlarım üçün də bir dəyərin təntənəsidir. Əmin edirəm ki, bundan sonra da vəzifə borcumu vicdanla yerinə yetirəcək, göstərilən etimadı doğrultmaq üçün əzmlə çalışacağam. Bizə göstərilən bu etimada görə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi kollektivi adından dərin minnətdarlığımızı bildiririk".

## Xalq artisti Mənsum İbrahimovun 65 illik yubileyi konsert proqramı ilə qeyd olunub




Oktyabrın 8-də Naxçıvanda Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin dəvəti və təşkilatçılığı ilə Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli xanəndə, professor Mənsum İbrahimovun 65 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim olunub.

Öncə Xalq artisti Mənsum İbrahimovun həyatı və səhnə fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirin rəsmi hissəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Xalq artisti Mənsum İbrahimovu 65 illik yubileyi münasibətilə təbrik edib, sənətkarın Azərbaycan musiqi mədəniyyətinə bəxş etdiyi zəngin töhfələrdən söz açıb. Dövlətin ən ali mükafatlarına layiq görülən görkəmli sənətkara universitetin Elmi Şurasının qərarı ilə "Fəxri professor" diplomunun da təqdim olunduğunu diqqətə çatdırıb. Elbrus İsayev yubilyara görüşdən xatirə plaketi və NDU-nun Konservatoriyasının "Qədim musiqi alətləri emalatxanası"nda hazırlanan qədim "Çovur" musiqi alətini hədiyyə edib.

Muğam sənətinin görkəmli nümayəndəsi, müxtəlif dövrlərdə dörd dəfə Prezident mükafatına, 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalına, UNESCO səviyyəsində "Yaşayan insan xəzinəsi" adına layiq görülən sənətkar Mənsum İbrahimov muğam sənətinin inkişafında və təbliğində göstərilən dövlət dəstəyindən danışıb. Sənətkar xüsusilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən böyük layihələrin, muğam müsabiqələrinin müstəsna rolunu qeyd edib. Yubilyar tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

Konsert proqramının bədii hissəsində tarda Xalq artisti Elçin Həşimov, kamançada Əməkdar artist Elnur Əhmədovun müşayiəti ilə Azərbaycan Respublikasının Əməkdar artistləri Nuriyyə Hüseynova, Təyyar Bayramov, Elnur Zeynalov, "Muğam" televiziya müsabiqəsinin qalibi Gül-



lü Muradova və həmin müsabiqənin laureatı Gülzar Fərəcovanın ifasında musiqi nömrələri dinlənilib. Eləcə də NDU-nun gənc və istedadlı müəllimləri zərb alətlərində Nəcəf Hacılı, nağarada Munis Əliyev və sintezatorda Səxavət Rəhimovun müşayiəti ilə sənətkar Mənsum İbrahimovun repertuarında yer alan bir-birindən zəngin xalq mahnıları və muğamlardan ifa olunan parçalar alqışlarla qarşılanıb.

Tədbir çərçivəsində Naxçıvan ziyalıları adından çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan musiqiçiləri adından Əməkdar mədəniyyət işçisi, görkəmli tarzən Əkrəm Məmmədli Mənsum İbrahimovu 65 yaşının tamam olması münasibətilə təbrik edərək onun həyat və yaradıcılığından, muğamlarımızın inkişafındakı xidmətlərindən söz açıblar.

Konsert proqramı sonda Xalq artisti Mənsum İbrahimovun təkrarsız ifası və tanınmış muğam ifaçıları ilə birgə səsləndirilən "Yaşa mənim xalqım" mahnısının sədaları altında yekunlaşıb.

## Möminə xatun türbəsində bərpa işlərinə start verilib



UNESCO-nun Mədəni İrs Siyahısına daxil olan və Naxçıvan-Marağa memarlıq məktəbinin nadir nümunələrindən sayılan Möminə xatun türbəsində bərpa işlərinə başlanılıb. Layihə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkətinin əməkdaşlığı çərçivəsində həyata keçirilir.

Mədəniyyət Nazirliyinin nümayəndəsi



Məmməd Hüseynli bildirib ki, türbənin bərpası zamanı abidənin tarixi görkəminə zərər vurulmadan müasir texnologiyalar tətbiq olunacaq: "Möminə xatun türbəsi Azərbaycanın memarlıq incilərindən biridir. Bərpa işlərinin məqsədi abidənin tarixi orijinallığını qorumaqla onun davamlılığını təmin etməkdir. İşlər zamanı həm ənənəvi materiallardan, həm də müasir texnologiyalardan istifadə ediləcək. Təhlükəsizlik məqsədilə abidəyə ziyarət müvəqqəti olaraq dayandırılıb".

Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkətinin rəhbəri Erik Pumer qeyd edib ki, Möminə xatun türbəsinin bərpasını həyata keçirəcəyik və



hazırlıq tədbirləri görürük: "Layihənin davamı kimi hazırda texniki tədqiqatlar aparılır, çünki bu mühüm tarixi obyektdir".

O vurğulayıb ki, hər hansı bir bərpa tədbirlərinə başlamazdan əvvəl türbənin altındakı bütün qrunt sularının vəziyyətini, bərkliyini və sair öyrənmək lazımdır: "Gələn həftədən başlayaraq burada infrastrukturun yaradılması işi davam edəcək. Bura konteynerlər gətiriləcək, materiallar yerləşdiriləcək. Biz planlaşdırmışıq ki, bərpaçılar burada işləsin, vaxt itirməyək, operativ olaq. İlin sonu ayaqaltılar, iskələlər gətiriləcək. Yeni ildə infrastuktur hazır olanda iskələlər quraşdırılan kimi bütün tədqiqatlar artıq türbənin üzərində aparılacaq ki, sonda bərpa işləri müvəffəqiyyətlə yerinə yetirilsin".

"Mənim işim bərpa prosesini həyata keçirməkdir. Bu işləri dəqiq qiymətləndirmək üçün Almaniyadan xüsusi olaraq geotexniki işində böyük təcrübəsi olan mütəxəssis Mixael Çişe dəvət olunub", – deyə şirkət rəhbəri əlavə edib.

Bərpa prosesinin geotexniki hissəsini Almaniyadan dəvət olunan mütəxəssis, hidrogeoloq Mixael Çişe icra edir:



"Mən Berlin şəhərində anadan olmuşam, amma Bakıda – Azərbaycan Neft və Sənaye Universitetində geologiya üzrə təhsil almışam. Naxçıvanda ilk dəfə oluram və bu layihədə iştirak etdiyim üçün çox şadam. Torpaqdan götürülən nümunələri laboratoriyada araşdıracağıq, onların dayanıqlılığını müəyyən edəcəyik".

Mixael Çişe əlavə edib: "Naxçıvanın geoloji xəritəsini araşdırdıq, suyun dərinlik səviyyəsini ölçdük. Təxminən, bir həftə ərzində dəqiq nəticələr əldə edəcəyik. Möminə xatun türbəsində aparılan geotexniki qazıntıların məqsədi süxurların davamlılıq xüsusiyyətini, yeraltı suların səviyyəsini və torpaq strukturlarını müəyyən etməkdir. Tədqiqatların nəticələrinə əsasən abidənin bərpası orijinal formaya tam uyğun şəkildə həyata keçiriləcək".

## İlber Ortaylının Naxçıvan səfəri – *elm və ruhun görüşü*



Dünyaca məşhur tarixçi, Türkiyənin böyük düşüncə adamı, professor İlber Ortaylı keçən ay Naxçıvan Muxtar Respublikasına səfər etdi. Bu səfər təkcə bir akademik görüş, bir mühazirə və ya universitet tədbiri deyildi. Bu Naxçıvanın elm, mədəniyyət və maarif tarixində iz buraxacaq hadisə idi.

Hər ölkə, hər şəhər böyük ziyarətçilər görür. Amma hər şəhər bu ziyarətçiləri heyran buraxa bilmir. İlber Ortaylının "Naxçıvanda hər kənddə musiqi məktəbi, Naxçıvan Dövlət Universitetində simfonik orkestr var. Atatürkün istədiyi cümhuriyyət bu idi" sözləri təkcə bir kompliment deyil, bir düşüncənin nəticəsi idi. Bu, muxtar respublikanın illərlə formalaşmış maarifçilik ənənəsinə verilən yüksək qiymət idi. Professorun bu ifadəsi, əslində, Naxçıvanın nə qədər dərin mədəni əsaslara malik olduğunu göstərir. Bəzən bir şəhərin inkişafını binalar, yollar, sənaye müəssisələri ilə ölçürlər. Amma Naxçıvanın böyüklüyü başqa yerdədir. Bura insana yatırılan sərmayənin vətənidir. Burada elm, musiqi, mədəniyyət bir həyat tərzidir.

Bu səfərin əsas təşəbbüskarı və təşkilatçısı olan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev son illərdə bu ali təhsil ocağını yeni bir mərhələyə daşıyıb. Universitetin qapıları artıq yalnız tələbələrə deyil, dünyaca tanınmış elm adamlarına, ictimai xadimlərə də açıqdır. Hər belə görüş bir universitet üçün təkcə tədris hadisəsi deyil, həm də ruhi bir hadisə, tələbələrin dünya görüşünə açılan pəncərədir.

Naxçıvan Dövlət Universitetinin tələbələri bu illər ərzində bir çox tanınmış alim və ziyalılarla bir araya gəliblər. Amma İlber Ortaylının gəlişi həm miqyas, həm də mənəvi təsir baxımından fərqli idi. O, tarixi bir ensiklopediyanın canlı versiyasıdır. Hər cümləsində bir əsrin səsi, bir millətin ruhu var. Naxçıvanda söylədiyi fikirlər təkcə auditoriyada deyil, sosial şəbəkələrdə, mediada, insanların yaddaşında uzun müddət qalacaq.

Bəzən bir şəhərin, bir bölgənin intellektual nüfuzunu bir səfər dəyişə bilir. İlber Ortaylının Naxçıvana səfəri də belə idi, Naxçıvanın düşüncə xəritəsində yeni bir parıltı. O buradan heyranlıqla ayrıldı. "Naxçıvan Dövlət Universiteti hər zaman hafizəmdə örnək universitetlər arasında qalacaqdır".

Bəlkə də, bu heyranlığın səbəbi, sadəcə, qədim abidələr, təbiət və ya tarixi binalar deyildi. Əsl səbəb insan idi, bu torpağın ziyalıları, tələbələri, musiqi sevən uşaqları və ən əsası, mədəniyyətə göstərilən sevgi idi.

Bu hadisə həm də bir mesaj idi: Naxçıvan yalnız coğrafi baxımdan Azərbaycanın qərb qapısı deyil, elm və mədəniyyət baxımından da onun fəxarət qapısıdır.

İlber Ortaylının ayaq basdığı torpaq bu dəfə daha da gur nəfəs aldı, çünki onu anlayacaq, onun dediklərini dəyərləndirəcək bir auditoriya vardı.

Rektor Elbrus İsayevin bu səfəri həyata keçirməklə göstərdiyi təşəbbüs tək bir tədbirin təşkilindən daha çoxdur və bu, maarifçilik ideyasının davamıdır. Hər belə layihə Naxçıvan tələbəsinin dünyagörüşünü bir az da genişləndirir, onu beynəlxalq düşüncə ilə tanış edir.

Bəli, İlber Ortaylı istənilən ölkəyə dəvət edilə bilər, amma hər yer onun qəlbində iz buraxa bilmir. Naxçıvan bunu bacardı. Bu, bir uğurdan da artıqdır, bu, mədəniyyətin qalibiyyətidir.

Nəticə etibarilə, bu səfər bir daha göstərdi ki, elm və mədəniyyət sərhəd tanımır. Naxçıvan Muxtar Respublikası öz intellektual enerjisi ilə bu gün təkcə regional deyil, milli səviyyədə də nümunə göstərir.

Və İlber Ortaylının dediyi kimi "Atatürkün istədiyi Cümhuriyyət bu idi".

Onu qorumaq və yaşatmaq isə bizə borcdur.

**Tahir TAHİROVİÇ**
***Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, kinorejissor***

## Zəfər yolu

# Əsgər andının sınağa çəkildiyi 44 gün



Rza Əlirzayev Artilleriya Kəşfiyyat rəisi vəzifəsində xidmət edib. Tərtər istiqamətində, ön cəbhədə döyüş yolu keçib. Hərbi rütbəsi kapitandır. Elə söhbət əsnasında o günləri xatırlayaraq danışır: "Müharibə xəbəri ilk gəldiyi an, ürəyimdən keçən tək bir fikir vardı, illərlə gözlədiyimiz an artıq çatıb. Torpaqlarımızı azad etmək üçün canımızdan belə keçəcəyimiz gün gəlmişdi. Mən yalnız bir zabit kimi yox, bu Vətənin övladı, bu torpaqların bir sakini kimi vuruşmağa can atırdım. Hisslərim çox qarışıq idi. Həm qürur, həm də ağır məsuliyyət. Qarşımızda ölüm də vardı, amma Vətən sevgisi hər bir hissi unutdururdu".

Kapitan üçün döyüşün səsi yad deyildi. Çünki o, artıq Aprel döyüşlərində atəş səsləri ilə çoxdan tanış olmuşdu. 44 günlük Vətən müharibəsində isə artıq nəyin onu gözlədiyini yaxşı bilirdi.

O danışdıqca sanki həmin günlər yenidən gözlərinin önündən film kimi keçirdi: "Həmin günlərdə zaman sanki dayanırdı, yalnız bir məqsəd vardı: irəli getmək. İrəli getmək, torpağı azad etmək, nə bahasına olursa olsun, düşməni geri çəkilməyə məcbur etmək".

Bu yol bizim üçün həm şərəf, həm də ağır məsuliyyət demək idi.

"Mənim üzərimə düşən vəzifə yalnız əmrləri yerinə yetirməklə kifayətlənmirdi. Mən zabit idim və yanımdakı hər bir döyüşçünün həyatı mənim üzərimdə məsuliyyət idi. Yaralandığım halda belə müalicədən imtina edib yenidən döyüşə qayıtdım. Mənim yerim ön xətt idi. Bu məsuliyyəti yalnız mən daşımırdım, o vaxt əynində forma olan hər bir əsgər, zabit, hərbçi bu yükün altına girmişdi. Ona görə də bu gün torpaqlarımız azaddır".

Onun sözlərində ən çox vurğuladığı məqam isə Şuşa döyüşləridir: "44 günün hər saniyəsi ağır idi, amma Şuşanın azad olunması anı bütün çətinlikləri unutdurdu. Sıldırım qayalıqlarla, yüngül silahlarla tankların, artilleriyanın üstünə getmək, sonra isə zəfər çalmaq. Bu yalnız gözləri ilə görənlərin anlaya biləcəyi bir möcüzə idi. Mənim üçün müharibənin ən qürurlu anı məhz Şuşanın fəthi idi".

Vətən üçün sağlamlığını itirən zabit danışdıqca bir səhnə üzərində xüsusilə dayanır. Onun yaddaşına silinməz iz buraxan, döyüş meydanında insanın qəhrəmanlığının zirvəsini göstərən an: "Bir döyüş yoldaşım BTR-ni düşmənin BMP-sinin üstünə sürdü. Daha sonra əl qumbarasını qucaqlayıb düşmənin texnikasına atladı. Həm düşməni, həm də özünü partlatdı. Bu görüntü gözümün önündən heç vaxt getməyəcək. Məhz bu cəsarət, bu fədakarlıqdır xalqımızı yaşadan".

Şəhid yoldaşlarından söz açarkən isə kapitanın səsi bir anlıq titrədi. Ən çox da Vətən müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Əfqan Əbdürrəhmanovu xatırlayır: "O mənim üçün böyük qardaş idi. Boy-buxunlu, güclü idi. Elə bilirdim, düşmən ona heç nə edə bilməz. Mühasirədə olanda tank zərbəsi ilə ağır yaralansa da, ayağa qalxıb döyüşə davam etdi. Daha sonra düşmən gülləsinə tuş gəldi və şəhid oldu. O an yaddaşımda əbədi qaldı. Mən yaralı halda o səhnəni gördüm… Daha sonra bir neçə dəfə yuxuma da gəldi".

Kapitan Rza Əlirzayev xidmət illərində bir çox mükafatlara layiq görülüb. O, Silahlı Qüvvələrin yaranmasının 90, 95 və 100 illiyi medalları, həmçinin "Qüsursuz xidmətə görə" III və II dərəcəli medallar ilə təltif olunub. Vətən müharibəsində göstərdiyi igidliyə görə isə "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

✍ Elnurə CƏFƏROVA

# Vətən igid ərənləri ilə var olur



Hər dəfə onun adı çəkiləndə şəhidlik zirvəsinə ucaldığı gündən sonra oğlunun səsləndirdiyi "Mən şəhid Elməddin Meydanovun oğluyam. Mən atamla fəxr edirəm" sözləri düşür yadıma. Və öz-özümə deyirəm ki, düşmən, qorx o xalqdan ki, o, bir ölüb min dirilə bilir. Qorx o xalqdan ki şəhid oğlu boynunu bükmür, "Atamın yolunu davam etdirəcəyəm", – deyir.

Bəli, onlar öz ölümləri ilə əbədiyyət qazanıb, Vətəni balalarından çox sevib, soyuq məzar daşlarından boylanan gözlərinə əbədi həsrət çökən oğullardırlar. Onlar övladlarına atasız böyüyə bilərsiniz, amma Vətənsiz yaşaya bilməzsiniz deyən igidlərdir. Vətən savaşının şərurlu qəhrəmanlarından biridir Elməddin Meydanov.

Onun xatirələri ilə yaşayan oğulları Əli və Yusiflə nəfəs alan Səma xanım həyat yoldaşını belə xatırlayır: "Elməddinlə 2012-ci ildə ailə qurmuşuq. Həmin vaxtlarda o, Cəlilabadda xidmət edirdi. Çətin şərait olsa da, onun yanına getdim və orada yaşamağa başladım. İki övladımız oldu. Çox xoşbəxt həyatımız var idi. O, işdən imkan olan kimi uşaqları ilə vaxt keçirərdi. Onlarla oyunlar oynayardı. Bizi gəzməyə aparardı. Son vaxtlar imkanı olmurdu bizlə vaxt keçirməyə, tez-tez təlimə gedirdi. Mən elə bilirdim ki, xidmət yeri dəyişəcək, amma elə deyilmiş, döyüşə hazırlaşırmış, sən demə. Həmin gün hər kəs kimi mənim də bircə duam var idi, övladlarımın atası sağ-salamat evimizə qayıtsın. Müharibə başlayanda mənimlə danışdı. "Fikir eləmə, qalib olmağa gedirik", – dedi. Sən güclü qadınsan, mənə nə isə olsa, balalarımızdan muğayat ol deyib getdi. Döyüşlər səngiyəndə zəng vurardı, mənə uşaqları bərk-bərk tapşırardı. Son dəfə oktyabrın 27-də, günorta saat 3-də danışdı mənimlə, son dəfə səsini eşitdim. Həmin gün beş saat sonra şəhid olub Elməddin. O, şəhid olub canını Vətənə qurban verəndə mən iki oğlumuzla birlikdə Cəlilabaddakı xidməti evimizdə onu gözləyirdim. Dəfələrlə zəng vurmağıma baxmayaraq, məşğul gedirdi telefonu. Sevinirdim ki, sağdır, kiminləsə danışır, yəqin ki. Elə həmin vaxt evimizin qapısı döyüldü. Qapını açanda ailə dostumuzun gəldiyini gördüm. Mənə Elməddin yaralanıb Bakıya gedirik dedilər. Sən demə, o, Vətəni məndən də, balalarından da çox sevirmiş. Bakıya çatandan sonra bildim onu əbədi olaraq itirdiyimi. Son dəfə bir ailə olaraq Naxçıvana qayıtdıq. Mən göz yaşları içində övladlarıma sarılmışdım, o isə çox sevdiyi üçrəngli bayrağa.

Həmin gün həyatımın ən çətin anını yaşadım. Elməddini canından çox sevdiyi torpağa tapşırandan sonra övladlarımın nəfəsi və onun xatirələri ilə yaşamağa çalışdım. Onun şəhadətindən iki il sonra Zəngilana getdim, son dəfə nəfəs aldığı yerlərdə onun izini axtardım. Çox çətin idi orada olmaq. Amma gördəm ki, Zəngilana həyat qayıdır, oradakı körpələr gülür əmin oldum ki, Elməddin kimi oğulların xatirəsi əbədi olaraq yaşayacaq".

Onun təltif edildiyi "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" medalları bu gün mənə təsəlli olur.

# Adına və Vətəninə layiq oğul



O, dünyaya gələndə atası adını türk xalqının igid oğlu, azərbaycanlı qardaşlarının dar günündə köməyinə çatan Ənvər paşanın adını vermişdi. "Adı ilə böyüsün", – demişdi. Adı ilə böyüdü Ənvər Əliyev. Hərbçi oldu, Vətənin müdafiəsinə qalxdı. Evin sonbeşiyi Ənvəri ilə fəxr edir Nizami ata. Deyir ki, o həm adına, həm də İkinci Dünya müharibəsində qəhrəmancasına döyüşən babası Həsən kişiyə, arxa cəbhədə qəhrəmanlıq göstərən kişi qeyrətli nənəsi Sona xanıma layiq oldu. Babasının arzusunu reallaşdırıb hərbçi oldu. Çox sevdi hərb sənətini, bu sevgi körpə yaşlarından baş qaldırmışdı Ənvərin qəlbində. Məhz bu istəyi onu 2012-ci ildə oxuduğu Axaməd kənd tam orta məktəbindən Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə apardı.

Ənvər hərbi liseydə oxuduğu illərdə də dərslərində fəallığı, davranışı, vətənpərvərliyi, mənəvi keyfiyyətləri ilə seçilən kursant oldu, neçə-neçə fəxri fərmanlara, medallara, təşəkkürnamələrə, "İlin ən yaxşı kursantı" adına layiq görüldü. 2015-ci ildə buradakı təhsilini nümunəvi attestatla bitirəndə yaxşı oxuduğu üçün Türkiyə Respublikasının Ankara şəhərinə göndərildi. Orada oxuduğu dövrdə müəllimləri elə Ənvər paşa deyirlər ona. 2016-cı ildə Vətənə qayıdaraq təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirən Ənvər Əliyev 2020-ci il 1 iyul tarixdə Tərtər rayonunda hərbçi kimi şərəfli xidmətinə başladı. Vətən müharibəsində Talış kəndi və Suqovuşan uğrunda gedən döyüşlərdə elə Ənvər paşa kimi bir qəhrəman olduğunu təsdiqlədi. Oktyabrın 14-ü isə Talış yüksəkliyində 2 əsgəri ilə birgə şəhidlik məqamına ucaldı. Qəhrəman şəhid Ənvər Əliyev döyüşlərdə göstərdiyi şücaətə görə, "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Onun ən böyük arzusu Vətənin bütövlüyü idi. Ruhun şad olsun, qəhrəman. Şuşa da, Laçın da, bütöv Qarabağ da azadlığa qovuşdu sənin kimi oğulların canı bahasına.

# Ən yüksək rütbəyə çatan qəhrəman

Qədim Naxçıvanın igidlər yurdu Kəngərlidəyik. Qəhrəmanovların ocağına üz tutmuşuq. Qıvraq qəsəbəsi böyük yer olsa da, ünvanı heç kimdən soruşmadan gedirik. Çünki qələbə bayraqları yol göstərir bizə. Həyətə çatırıq, Niyaməddin atanı iş başında görürük. Oğlu Elməddinə öz həyətyanı sahələrində ayrıca otaq inşa edib, muzey yaradıb onun həyatini sahmana salır.

Vətən bizim həm namusumuz, qeyrətimiz, həm də var oluşumuzdur deyir qürurlu ata: "Oğlum hərbçi olmaq istəyini mənə deyəndə Qarabağın işğalı, Xocalı faciəsi, evindən didərgin düşmüş insanlar gəldi ağlıma. Çünki yaxşı bilirdim ki, erməni kimi düşməni olan ölkənin hərbçisinin çiyinlərində necə ağır bir yük var. Hərbçi olmaq istəyən gənc cəsarətlidir, amma müharibə şəraitində olan bir dövlətin zabiti olmaq istəyən gənc isə artıq şəhadət şərbətini içməyə hazır olan gəncdir. Onun bu istəyi ilə razılaşanda



sevincini görmək məni qürurlandırdı. Onunla fəxr edirəm, çünki başımızı uca etdi, bizə qələbə gətirdi".

Ata ilə söhbətimizə qoşulur Təranə ana, bizi oğlunun otağına dəvət edir. İçəri giririk. Otağın hər tərəfindən bizə "baxır" Elməddin. Ucaboylu, sərvqaməli, gülərüzlü, yaraşıqlı bir oğul. Anasının doya-doya qucaqlaya bilmədiyi, nişan xonçaları məzarına düzülən Vətəni yarından, anasından, canından çox sevən igid. Sevib-seçdiyi hərbi formalarına, son dəfə ayağına geyindiyi çəkmələrə baxıram. Çəkmələr təmizdir, bircə altında palçıq qalıb.

"Həmin gün bu çəkmələr var imiş ayağında, yumağa qıymadım. Axı Qarabağ torpağıdır, illərlə həsrət qaldığımız torpaq. Balalarımızın qanı axan torpaqdı o", – deyir qəhrəmanın anası. "Uşaq vaxtlarından həvəsli idi. Zabit olmaq istəyirdi, qəsəbədə yerləşən hərbi hissəyə gedib-gələn hərbçilərə baxır, "Mən də zabit olmaq istəyirəm", – deyirdi. Hər dəfə "Çox çətindi bu sənət, ağırdı, ay bala, başqa sənət seç", – desəm də faydası olmurdu. Anayam axı, ürəyim dözmədi, dedim, qoy balam arzusuna çatsın. Naxçıvan şəhərindəki hərbi liseyə qəbul oldu, sonra Bakıya uzandı yollarımız. Təhsilini bitirib evə gələndə özünə təzə hərbi forma almışdı. Əyninə geyinib paqonlarını çiyninə taxıb, çölə çıxdı. Balamın uca boyuna, yaraşıqlı simasına elə gözəl yaraşırdı ki, hərbi forma. Qucaqlayıb, "Ay Elməddin, necə yaraşıqlı olmusan, gün o gün olsun, general olasan. Niyyət edirəm general olanda sənin hərbi formanı özüm alacam" dedim. O isə məni lap möhkəm sinəsinə sıxıb, ay ana, generaldan da böyük rütbə var, sən dua elə mən ona çatım. Amin dedim oğlumun arzusuna. Mən o an haradan bilərdim ki, balam özünə şəhidlik arzulayırmış.

Təranə ana deyir: "Elməddin xidməti vəzifəsini 2018-ci ildən Ağdamda yerinə yetirdi. Vətən müharibəsi başlayan günlərdə də orada idi. İmkan olanda zəng vurardı, danışardı. Hər dəfə "Narahat olmayın, vəziyyət yaxşıdır, düşmənin nəfəsi kəsilir artıq", – deyərdi. Oktyabrın 6-sı dan yeri ağarandan sanki ürəyimə od düşmüşdü, yanırdı. Demə, hiss edirmişəm balamın son nəfəsini. O ən böyük arzusuna çatıb, ən yüksək rütbəni qazandı. Özü gələndən sonra çiynində gəzdirməyə macal tapmadığı baş leytenant rütbəsi, 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medalları gəldi. Onun arzusu yerinə yetdi, mənim isə onun üçün qurduğum xəyallar soyuq bir daş oldu. Bircə təsəllim var, onun ayağının dəydiyi yerdə güllər bitir artıq".

Qəhrəman yetişdirən ana-ata ilə sağollaşır, Naxçıvan şəhərinə uzanan magistral yol ilə şəhərə qayıdırıq. Kəngərli rayon Bayraq Meydanında bizi "yola salan"qürurla dalğalanan bayrağımıza baxıram və öz-özümə deyirəm: "İndi o daha böyük bir qürurla dalğalanır. Çünki o qalib ordunun Müzəffər Ali Baş Komandanın əlləri ilə Qarabağda göylərə yüksəldi. O, igid oğullara bəy köynəyi oldu".

**"Şərq qapısı"**

## Zəfər tarixi

*Elə ilin bu vaxtları idi, söz vaxtına çəkər. Havalar vaxtından tez soyuyurdu nədənsə. Son iki il idi, ağaclar nə vaxt çiçək açır, nə vaxt yarpağını tökürdü bilmirdik. Müharibə gedirdi sərhədlərimizdə, sakinlərinin gününün çoxu çörək, neft növbələrində keçirdi. Düşmən sərhədboyu hücumlar edir, Sədərəkdə isə, demək olar ki, silahlar gecə-gündüz susmurdu. Silahlar deyəndə ki, elə düşmən təpədən dırnağa silahlanmışdı, bizim könüllü dəstələrdə ov güllləsi var idi, sadəcə. Naxçıvan polis və könüllülərlə qorunurdu. Ordu yox idi. Çünki 70 illik əsarətdə sərhədimiz tərkibində bir dənə belə azərbaycanlı əsgər, zabit olmayan sovet ordusu tərəfindən qorunmuşdu. Onlar da əlini başının altına qoyub gözləyirdi ki, görsün erməni nə vaxt Naxçıvanı işğal edəcək, onlarla birləşib sevinsinlər.*

*Yenicə müstəqillik qazanmış Azərbaycan dövlətinin rəhbərləri isə bu qədim yurdu görməzdən gəlir, heç bir kömək etmirdi.*

# Müzəffər Ordu ilk addımını Naxçıvanda atıb

Həmin illərdə Naxçıvanda elə bir birlik yaranmışdı ki, Tanrı, bəlkə də, bu yurdun qəlbindəki Vətən sevgisini görüb bizə xilaskar göndərdi. Çətin günlərdən birində Ulu Öndər Heydər Əliyev televiziya və radiodan Naxçıvan sakinlərinə müraciət edib ordu yaratmaq üçün kömək etməyə səslədi. Həmin gün neçə-neçə ananın, qız-gəlinin sandığı, mücrüsü açıldı. Məğrur qadınlarımız öz saxlanc yerləri olan sandıqlarından neçə yadigarlarını, xoş günlərinin xatirələrini, toy-duvaq, gəlin üçün əzizlənə-əzizlənə saxlanılan zinət əşyalarını ovuc-ovuc çıxarıb çörəklə yox, silahla, patronla dəyişdilər. Çünki qeyrətli Azərbaycan anası tapdığı bir ovuc taxılı üyüdüb yemək üçün ağlayan körpəsini sakitləşdirməyi bacarırdı. Amma çörəyimizi yeyib torpağımıza göz dikənləri igid oğullarımız ancaq silahlarla susdura, ata-baba torpaqlarımızdan uzaq tuta bilərdi.

Bu həmin günlər idi, dahi rəhbərin: ***"Biz tam əminik ki, bu keçid dövründə, Ermənistanla gedən müharibə şəraitində yaradılmış milli ordumuzun əsgər və zabitləri, bölmə və hissə komandirləri öz döyüş məharətlərini durmadan yüksəldəcək, müasir hərbi elmə inadla yiyələnəcək, torpaqlarımızın etibarlı surətdə müdafiə olunmasını yüksək səviyyədə təmin edəcəklər"***, – dediyi günlər. Ulu Öndər hələ sovet dövründə, Azərbaycana rəhbərlik etdiyi illərdə milli zabit kadrların yetişdirilməsini prioritet hesab edirdi. Uzaqgörən siyasət xadimi hələ 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail oldu. Ulu Öndər elə o illərdə azərbaycanlı gəncləri SSRİ-nin qabaqcıl hərbi məktəblərinə təhsil almağa göndərirdi.

Müstəqilliyimizin ilk illərində acı bir həqiqəti də duymuşduq. Hərbi gücümüz zəif idi. Biz hər çətinliyi aradan qaldıra bildik, özü də qısa vaxtda. Dahi rəhbərin bütün arzuları kimi güclü ordu istəyi də yerinə yetirildi. Azərbaycan ötən illər ərzində Qafqazda söz sahibinə çevrilib qalib dövlət şərəfinə nail oldu. Ötən illər ərzində dövlətimizin iqtisadi imkanları artdıqca orduya daha çox vəsait ayrılmasına imkan yarandı. Müharibə şəraitində yaşadığımız illərdə Silahlı Qüvvələrin Ali Baş Komandanı ölkənin müxtəlif bölgələrinə səfərləri zamanı teztez hərbi hissələrdə olub çətin şəraitdə Vətənə xidmət edən hərbi qulluqçularla görüşürdü. Dahi rəhbərin ordu quruculuğu sahəsindəki bütün planları yerinə yetirildi, ordumuz dövlətimizin, müstəqilliyimizin və təhlükəsizliyimizin dəmir qalxanına, xalqımızın yenilməz dayağına çevrildi. Torpaqlarının bir hissəsi işğal altında olan bir ölkə üçün güclü ordunun mövcudluğu xüsusilə önəmli olduğundan ordumuzun gücü daha da artırıldı və qüdrətli müdafiə sənayesi yaradıldı. Qısa müddətdə hərbi sənayesi formalaşan Azərbaycanda bu gün ən müasir silahlar, döyüş sursatları və hərbi texnikalar istehsal olunur. Ölkənin müdafiə qabiliyyəti öz sənaye istehsalının hesabına gücləndirilir. Və bütün bunların nəticəsi olaraq biz Zəfər qazandıq – ordu, xalq, dövlət birləşərək "dəmir yumruğ"a dönərək.

2020-ci ildə dünyanın Azərbaycanı sevməyən dövlətləri bizə qarşı olsa da, bir xalq kimi birləşib gücümüzü və haqq işimizi bütün dünyaya nümayiş etdirdik. Və dünya bunu qəbul etməyə məcbur oldu. Qətiyyətli mövqeyə sahib olan Azərbaycan Respublikası Prezidentinin tutarlı dəlillərlə çıxışları qarşısında dayana bilməyən düşmən siyasətçiləri geri addım atdılar. Antiterror əməliyyatları isə ərazimizdə başqa bir dövlətin yaranmasına yol verilməyəcəyini sübuta yetirdi. Şanlı Vətən savaşı gələcək nəsillərə nümunə olacaq bir qələbə ilə başa çatdı. Elə bir qələbə ki tarixdə hələ belə bir mübarizə görülməmişdi. Bunlara əsas səbəbin hərbi gücümüzün artırılması olduğunu vurğulayan ölkə başçısı qeyd etdi: ***"Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə – nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilməzik. Həsab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik".***

Bütün bunlara isə ürəyi Vətən eşqi ilə döyünən qəhrəmanlar, bu yolda canından keçməyə hazır olan nər oğullar, torpaq uğrunda son damla qanına kimi döyüşən, düşmən tankının qarşısında əliyalın dayanan igidlərimiz, dar gündə sahib olduğu bütün var-dövləti orduya bağışlayan qocalarımız, nişan üzüyünü silahla dəyişən gəlinlərimiz, şəhid oğlunun tabutu qarşısında qurban kəsən atalarımız, "Oğlumun bəy paltarı Şuşada dalğalanan bayrağımızdır", – deyən analarımız olduğu üçün sahib olduq. Bəli, əgər bunlar olmasaydı, bizim bu gün müzəffər Ordumuz olmayacaqdı.

**"Şərq qapısı"**

# Qəhrəman üç qardaş



Qədim Naxçıvanın ulu yurdu Culfa rayonunda bir ocaq var: Nəcəfovların ocağı. Vətən savaşına kimi bu ailəni, sadəcə, dostları, tanışları, qohum-qonşular tanıyırdı. Şanlı zəfərdən sonra isə bu ailəni bütün Azərbaycan tanıdı. Üç oğlunu da Vətən savaşına göndərən ananın döyüşlərdə şəhid olan oğlu Yaqubun məzarı başındakı məğrur duruşu, oğullarının qəhrəmanlığı bir çox azərbaycanlı ailəyə örnək oldu.

Beş il bundan əvvəl 27 sentyabrda başlayan Vətən müharibəsi xalqımızın qəhrəmanlıq simvoluna çevrilib. Ali Baş Komandanın verdiyi əmr ilə həmin gün müharibə başlandı. Müharibədə iştirak edən minlərlə qəhrəman oğulların sırasında Culfa şəhərində yaşayan Nəcəfovlar ailəsinin üç qəhrəman övladı da iştirak edirdi. Bu ailənin qəhrəmanlığı hələ I Qarabağ döyüşlərindən hər kəsə məlum idi. Belə ki, ailə başçısı Məhəmməd müəllim və iki qardaşı I Qarabağ döyüşlərində iştirak etmişdilər. Qəhrəman ailədə böyüyən Məhəmməd müəllimin hər üç övladı da ata və əmilərinin yolunu davam etdirir. Əvvəl evin böyük uşaqları, əkiz İsmayıl və İbrahim Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. Hər iki qardaş liseyi bitirdikdən sonra Ali Hərbi Məktəbə daxil olurlar. Evin sonbeşiyi Yaqub da qardaşlarından geri qalmır. Yüksək nəticə ilə hərbi liseyə daxil olur. 2020-ci ildə İbrahim və İsmayıl müxtəlif hərbi hissələrdə xidmətə, Yaqub isə Ali Hərbi Məktəbdə IV kursa başlayır. Elə həmin vaxt hər üç qəhrəman qardaş Vətənin keşiyində dururlar.

Yaxın günlərdə ailənin qonağı olduğumuzda ata Məhəmməd müəllim bunları danışdıqca sanki o günləri yenidən yaşayırdı. Amma o qədər fəxrli və qürurludur: "Müharibədə İbrahim Ağdam döyüşlərində, İsmayıl isə Suqovuşan döyüşlərində iştirak edirdi. Ağdamda gedən döyüşlər zamanı İbrahim ağır yaralanır, onu Bakı şəhərinə təxliyə edirlər. Vəziyyəti ağır olduğu üçün bizi İbrahimin yanına çağırdılar. Həmin dövrdə gediş-gəliş çətin olsa da, Bakıya getdim. Bir neçə gündən sonra Gəncədə təlimlərdə iştirak edən Yaqubla da görüşdüm. Müharibənin sonlarına az qalırdı, qızğın döyüşlər gedirdi. Mən də İbrahimin yanına qayıtmışdım. Yenə qayıdıb İsmayıl və Yaqubu görmək istəyirdim. Yaqubdan mənə zəng gəldi. Dedi, ata biz gedirik. Dedim, hara? Dedi, Füzulinin kitabını almağa. Yaqubgili ön cəbhəyə aparmışdılar. Füzuliyə, oradan Zəngilana, sonda isə Şuşaya doğru gedirlər. Şuşada əlbəyaxa döyüşlərdə iştirak edirlər. Şuşanın azad olunmasında qəhrəmanlıq göstərir. Şuşadan anasına və qardaşlarına zəng vurur ki, Şuşa azad oldu. Burada gəzirik".

Şuşanın azad olunmasından sonra düşmən diz çöküb təslim aktına qol çəksə də, mənfur erməni öz xislətindən əl çəkmir. Kiçik qruplar halında Şuşada gizlənən ermənilər qəhrəman oğullarımıza hücum edir. Həmin vaxt Yaqub da orada şəhid olur.

"Xəstəxanada İbrahimin yanında idim. Yaqubun zabit yoldaşı mənə zəng vurdu. Dedi, müəllim, başımız sağ olsun. Yaqub şəhid oldu. Dedim, Allah sizi qorusun, Vətən sağ olsun! Sonra həmin zabitə zəng vurdum, amma cavab vermədi. Öyrəndim ki, sonra özü də şəhid olub".

Kədərini içində boğan ata bu haqda yalnız İbrahimə deyir. Nə Xuraman müəllimin, nə də yaxın qohumlarının xəbəri olmur. Məhəmməd müəllim oğlu Yaqubun nəşini gətirmək üçün Qarabağa yollanır. Amma heç kim Yaqubdan xəbər vermir.

"Bütün qaynar xətlərə zəng vurdum. Hər kəs heç bir məlumatın olmadığını söylədi. Yaqubun şəkillərini ətrafa payladım. Bütün hospitallara, morqlara baxdım. Amma oğlumdan xəbər ala bilmədim. Sonda bir zabit mənə Yaqubun nəşinin Şuşadan gətiriləcəyini dedi. Hələ də Xuraman müəllimə bu haqda heç nə deməmişdim. Çünki mən bilmirdim ki, Yaqubu nə vaxt tapıb, nə vaxt anasına çatdıracağam. Hər dəfə mənə zəng vururdu ki Yaqubdan nə xəbər. Deyirdim ki, mən İbrahimin yanında, Bakıdayam. Yaqubun nəşi bir neçə gün sonra Füzuliyə gətirildi. Gedib oğlumu da götürüb yurduna gətirdim. Mən övlad acısı ilə yanan qəlbimi qələbə xəbərləri ilə soyudurdum az da olsa. Oğluma günlər sonra qovuşmuşdum, üçrəngli bayrağa sarılmış tabutunu evimizə gətirəndə bizi qarşılayan həyat yoldaşımın məğrur duruşu mənə güc verdi".

Nəcəfovların evində – üç qəhrəman oğulun böyüdüyü ocaqda olduğumuzda söhbət zamanı ata danışdıqca sanki o günləri yenidən yaşayırdı.

Buna baxmayaraq, o qədər mətin, qürurla danışırdı ki, Yaqub yenidən doğulub boya-başa çatsa, yenə də Vətənə qurban verər.

**✍ Turan MƏMMƏDLİ**









# Sərdar sarayının rəssamı

*Çox qədim tarixə və bədii ənənələrə malik olan miniatür üslubunun ilkin tətbiq məkanının zaman-zaman inşa olunan möhtəşəm saray və şəxsi imarətlər olmasının qarşılığında, sələflərimizin bu üslubun ali bədii-estetik məziyyətlərini özündə hifz edən divar bəzəklərinin bizim günlərə belə çatdığını söyləyə bilərik. Həsədaparıcı məkan gözəlliyinə malik olan, Şərqdə, o cümlədən də onun ayrılmaz hissəsi olan Azərbaycanda qərarlaşan belə tikililərin interyerlərini bəzəyən cəlbedici divar rəsmləri, ayrı-ayrı portret və naxış tərkibli kompozisiyalar bu gün də duyğulandırıcı mənəvi qaynaq olaraq diqqət çəkməkdədirlər. Həmin tikililər bir vaxtlar qədim Azərbaycan şəhəri İrəvanla yanaşı, Şəki, Şuşa, Ordubad, Bakı və digər yaşayış məskənlərini bəzəyiblər. Onların bəziləri zamanın sınağından çıxa bilməsələr də, çoxu bu gün də qalmaqda və tamaşaçılarına zövq verməkdədir. Əlavə edək ki, tarix həm də həmin tikililəri gözəlləşdirən neçə-neçə el sənətkarının adını bizə çatdırmışdır. Onlardan biri də İrəvanda yaşayıb-yaradan Mirzə Qədim İrəvani olmuşdur...*

Mirzə Qədim 1825-ci ildə qədim Azərbaycan şəhəri olan İrəvan sənətkar ailəsində anadan olmuşdur. Bəy nəslindən olan atası Hacı Məhəmməd Hüseyn öz dövrünün çox məşhur ağacoyma ustalarından olub. Elə balaca Qədimin rəssamlığa olan meylinin kökündə də onun göz açdığı vaxtdan evlərində atasının yaratdığı sənət möcüzələri ilə üz-üzə qalmasının durduğunu söyləmək olar. Qədimin uşaqlıq illərində çəkdiyi rəsmlər onun böyük istedadından xəbər verirdi. Bunu atası da, yaxın qohumları da yaxşı görürdülər. Başqa sözlə desək, onun böyüdükcə atasının yolunun davamçısı ola biləcəyini təsdiqləyəcək istedadı göz qabağında idi. Ancaq sənətə bu qədər böyük sevgisi olan Mirzə Qədimin sonradan professional təhsil almaması indiyə qədər də sual doğuran məsələlərdəndir. Belə ki, vaxtı çatanda atası İrəvanda ibtidai təhsil almış oğlunu Tiflis gimnaziyasına başqa bir peşəyə yiyələnmək üçün göndərir. O, təhsilini bitirəndən sonra doğma İrəvana qayıdaraq ömrünün axırına kimi şəhərdəki poçtda teleqrafçı işləyirdi.

Taleyinə 50 il ömür sürmək yazılmış M.Q.İrəvaninin adını bu gün Azərbaycan incəsənəti tarixində yaşadan, təbii ki, onun yaşının nə qədər olması deyil. Heç şübhəsiz, adi poçt məmuruna bu ölməzliyi qazandıran həmin yarım əsrin azlığı və yaxud çoxluğu olmayıb, onun bu müddətdə sənətlə bağlı olması, ecazkar bədii nümunələr yaratmasıdır. Rəssamın bədii yaradıcılığı – ərsəyə gətirdiyi portretlər və divar rəsmlərinin bu gün öz xalqına başucalığı və qürur bəxş etməsi isə, yəqin ki, həyatdakı ən böyük mənəvi qazancıdır. Varlığında kollej asessoru (çar Rusiyasında mülki rütbə) və rəssam taleyini birləşdirən M.Q.İrəvaninin onların hər ikisinə münasibəti, demək olar ki, doğma – bərabər olub. Onun əsərlərini vaxtaşırı "Mirzə Qədim İrəvani" və "Qədim bəy", bəzən də "kollej asessoru" kimi imzalaması da bunun əyani sübutudur.

O, təsviri sənətin bir çox sahələrində, o cümlədən monumental rəngkarlıq və qrafika sahələrində fəaliyyət göstərmişdir. Onun bir o qədər də çox olmayan bədii irsində portret və ornamental kompozisiyalar geniş yer tutur. Rəssamın kağız, parça, dəri və şüşə üzərində işlənmiş əsərləri bu gün Bakıda Azərbaycan Milli İncəsənət Muzeyində, Tiflisdə Gürcüstan Dövlət İncəsənət Muzeyində və Sankt-Peterburqda Dövlət Ermitajında nümayiş etdirilir.

Tədqiqatçılar Mirzə Qədimin yaradıcılığını xronoloji olaraq üç mərhələyə bölürlər. 1840-cı ildən 1850-ci ilə qədərki dövr birinciyə aiddir. Bu illərdə onun daha çox insan təsvirləri ilə əlaqəsi olmayan yaradıcılıq işləri ilə məşğul olması həm də onun cilalanan istedadının təbii sənət ustası olan atasından öyrəndiyi bədii-texniki vərdişləri başqalarına nümayiş etdirməyinin ifadəsidir. Onun divar tərtibatı və milli tikmələr ("təkəlduz" və "güləbatın") üçün tərtib etdiyi orijinal çeşni – eskizlər, hazırladığı trafaret – qəliblər də bunu təsdiqləyir. Gözoxşayan milli naxışlardan ibarət belə çeşnilərin əksəriyyətini simmetriya əsasında qurulmuş, nəbatat və yaxud heyvanat aləmindən götürülmüş motivlər təşkil edir. Canlılar aləmindən götürülmüş motivlər arasında bülbül, qaranquş, tovuz quşu, nəbati ornamentlərdə isə ot kolu, qızılgül və nar gülü əsas yer tutur. Hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında qorunan və qızılgül şaxəsi üzərində oturan bülbülü təsvir edən rəsm bədii dəyərinə görə xüsusi maraq kəsb edir. Qeyd edək ki, məhəbbət rəmzi sayılan və çox geniş yayılmış bu motivin rəssamın yaradıcılığında şüşə, dəri, parça və kağız üzərində çəkilmiş müxtəlif versiyalarına da rast gəlmək mümkündür. Onun bizim dövrə gəlib çatmış "Qırqovul və güllər" rəsm-qəlib nümunəsi də diqqətçəkən nümunələrdəndir.

Onun bədii irsində yağlı boya ilə çəkilmiş əsərlər də xüsusi yer tutur. Elə rəssamın yaradıcılığının ikinci mərhələsini həm də bilavasitə həmin işlər təşkil edir. Bu işlər vaxtilə İrəvan xanlığının iqamətgahı kimi inşa edilən Sərdar sarayını (XVIII əsr) bəzəyirmiş. Zəngin xarici və daxili tərtibata malik olan bu sarayın geniş salonunda zərif və şux koloritli naxışlar, tarixi və əfsanəvi süjetli divar rəsmləri, eləcə də "Qacar üslub"unda çəkilmiş portretlər yer almışdı.

XIX əsrdə müxtəlif funksiyalı ictimai tikililərdə monumental-dekorativ rəngkarlığın yer almasını Azərbaycan məkanında qədim bədii ənənənin davam etdirilməsi kimi də dəyərləndirmək olar. Bunun ən yaxşı nümunələrindən biri İrəvan şəhərində yerləşən Sərdar sarayının interyerində yer almış sənət nümunələridir.

Bir vaxtlar rəssama şöhrət gətirən bu əsərlərin sonrakı taleyi o qədər də ürəkaçan olmamışdır. Belə ki, Sərdar sarayı 1914-cü ildə erməni vandalları tərəfindən dağıdıldıqdan sonra Mirzə Qədim İrəvaninin iriölçülü bu portretlərinə gürcülər sahib çıxmış və onları Gürcüstana aparmışlar. Onlar bu əsərləri Tiflisdəki Hərbi-Tarixi Muzeyə təhvil vermişlər. Həmin portretlər Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Gürcüstan SSR Dövlət Muzeyinə, sonradan isə Gürcüstan İncəsənət Muzeyinə verilib. Sərdar Sarayından Tiflisə gətirilən sənət nümunələri muzey ekspozisiyasında göstərilmədiyindən və bərpa olunmadığından, uzun illər ərzində yalnız fondda qaldığından pis vəziyyətə düşmüşdülər. Müstəqillik illərində həmin əsərlərin mövcudluğundan xəbər tutan Azərbaycan tarixçilərinin yerli mətbuatda həyəcan təbili çalmaları nəticəsiz qalmadı. 2018-ci ildə Azərbaycan hökumətinin Gürcüstan rəhbərliyinə müraciətindən sonra M.Q.İrəvaninin əsərlərinin Bakıda Azərbaycan mütəxəssisləri tərəfindən bərpa olunmasına və sərgilənməsinə icazə alındı. Bundan sonra Azərbaycan Milli İncəsənət Muzeyinə gətirilən əsərlər bir neçə ay ərzində tanınmış bərpaçı-rəssam, Əməkdar rəssam Natiq Səfərovun rəhbərliyi altında həyata qaytarıldı. 2019-cu ilin mayında isə həmin əsərlər Heydər Əliyev Mərkəzində "Tarixin şah əsərləri" adı altında ictimaiyyətə təqdim olundu.

Zamanında Sərdar Sarayının interyerini bəzəyən bu əsərlər, ilk növbədə, ölçülərinin böyüklüyü ilə diqqət çəkir. Yağlı boya ilə kətan üzərində çəkilmiş portretlər 200x100 sm ölçüsündədirlər. Onlarda İrəvan xanlığı ilə bağlı olan görkəmli şəxsiyyətlərlə yanaşı, adları məlum olmayan adamlar təsvir olunmuşlar. M.Q.İrəvaninin bizə məlum olan bədii irsində yağlı boya ilə yaradılmış əsərlər barəsində bu vaxta qədər əldə edə bildiyimiz informasiyalar yalnız köhnə fotoşəkillər olduğundan, vaxtilə Sərdar Sarayının divarlarını bəzəyən bu portretlərlə Bakı sərgisində əyani tanışlıq çox yaddaqalan idi. Məlumat üçün bildirək ki, həmin sarayda divar rəsmləri mövcud olsa da, M.Q.İrəvaninin əsərləri kətanda işlənib çərçivələnəndən sonra interyerə daxil edilmişdi. Ona görə də onları 1914-cü ildə divardan çıxarıb Tiflisə aparmaq gürcülər üçün o qədər də çətinlik törətməmişdi.

Əgər yağlı boya ilə ərsəyə gətirilmiş bu əsərlərin bədii-estetik xüsusiyyətlərini rəssamın sulu boya ilə çəkilmiş portretləri ilə müqayisə etsək, onda onların arasında ciddi fərqin mövcud olduğunu söyləyə bilərik. Belə ki, kağız üzərində yaratdığı portretlərdə kifayət qədər bənzərsiz və özünəməxsus olduğunu sərgiləyən M.Q.İrəvaninin, kətan üzərində yaratdıqlarında həmin dövrdə Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətində geniş yayılmış "Qacar üslubu" estetikasına tapındığı görünməkdədir. Heç şübhəsiz, rəssamın kağız üzərində əldə etdiyi rəng axıcılığını və təravətliliyini yağlı boya ilə ifadə etmək çox çətin idi. Əslində, "Qacar üslubu"nun özü rəng dekorativliyinə meyilli idi və gənc rəssam da çəkdiyi portretlərdə bu estetikanı özünəməxsus tərzdə ifadə etməyə çalışmışdı. Bizə müqayisə üçün onun yağlı boya ilə çəkilmiş digər əsərləri məlum olmadığından, görünənlərə rəğmən demək olar ki, M.Q.İrəvani klassik miniatür rəngkarlığının Avropa bədii ənənələri ilə qovşağından yaranmış "Qacar üslubu"ndan istifadə etməklə yeni ifadə tərzini özünəməxsus çalarlarla zənginləşdirən sənət nümunələri yaratmışdır. Bunu onun sərgidə nümayiş olunan altı əsəri də təsdiqləyir. "Hüseynəli xanın portreti", "Qəhrəman döyüşçü", "Zöhrabın portreti" (onu "Rüstəm-Zal" da adlandırırlar), "İrəvan sərdarı Hüseynqulu xan", "Döyüşçü portreti" və "Fətəli şah Qacarın portreti" əsərlərində vurğuladığımız məziyyətləri görmək mümkündür.

Əlavə edək ki, rəssamın "Qacarlar üslubu"nun ən səciyyəvi xüsusiyyətləri sayılan bədii prinsiplərdən istifadə etməsi, sifət və əlləri realistik – gerçəkçi tərzdə, geyim və müxtəlif aksesuarlarının dekorativ tərzdə təqdimatı, tamaşaçısını duyğulandıra biləcək mənəvi qaynaq yarada bilməsi, sözün əsl mənasında, zamanında çəkdiyi akvarel portretlər kimi heyrətdoğurucudur.

Yeri gəlmişkən deyək ki, öz dövrü üçün ciddi bir sifarişin ona həvalə olunması, ilk növbədə, onun istedadına olan inamın göstəricisi idi. Qeyd edək ki, o, bu işləri 1850-ci ildə sarayın bərpa işləri ona tapşırılarkən yerinə yetirmişdir. Başqa sözlə desək, rəssam burada əvvəllər işlənmiş divar bəzəklərini bərpa etməklə kətan üzərində yağlı boya ilə sarayın daxili tərtibatına daxil ediləcək yeni portretlər də çəkmişdi.

Rəssamın vəfatından sonra ailə arxivində onun yüzdən çox əsəri qalıbmış. Bizim günümüzə isə onların yalnız 23-ü gəlib çatmışdır. Bunlar da 1918-ci ildə İrəvanda yaşayan azərbaycanlılara qarşı ermənilərin törətdiyi qırğınlardan xilas olmağa çalışan ailə üzvlərinin özləri ilə götürə bildiyi nümunələrdir. Sulu boya və qələmlə çəkilmiş həmin əsərlərin 20 ədədi hazırda Bakıda – Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

O, xüsusi rəssamlıq təhsili almasa da, görünür Tiflisdə oxuyarkən burada dünyəvi-müasir tədris proqramı çərçivəsində təsviri sənətin ilkin vərdişlərinə yiyələnməsi, ona burada qazandıqlarını və atasının tövsiyələrini əski milli dəyərlər – miniatürlər və el sənəti nümunələri ilə qovuşdurmağa, özünəməxsus üslubunu – dəst-xətini müəyyənləşdirməyə imkan vermişdir. Doğrudan da, M.Q.İrəvaninin yaratdıqlarını özündən əvvəl mövcud olanların – nə "Qacar üslubu"nun, nə də real – gerçəkçi sənət ənənələrinin birbaşa görüntüsü saymaq olmaz. Amma onun yaratdıqlarında hər iki ilhamverici mənəvi qaynağın təsiri olsa da, bütünlükdə onların çox fərqli biçimdə təfsiri-interpretasiyası duyulur. Ədalət naminə demək lazımdır ki, M.Q.İrəvaninin obrazları bütün mənalarda həm Azərbaycan, həm də dünya rəssamlığında gördüyümüz bədii şərhlərdən çox fərqlənir. Bunları həm də milli təsviri sənətimizdə gerçəkləşməyə başlayan dəzgah rəssamlığı formalarının ilk görüntüləri hesab etmək mümkündür.

Azərbaycan təsviri sənətinin çoxəsrlik tarixinin səhifələrini bəzəyən müxtəlif rəssam adlarının, demək olar ki, hər biri özündə bir-birindən çox fərqli sənətkar dünyasını ifadə edir, əldə etdikləri bədii-estetik məziyyətləri daşıyır. Başqa sözlə desək, sənətkarlar tərəfindən ifadə olunan bu dəyərlər həm də onların təmsil etdikləri xalqın dünyaya baxışının və gözəllik duyumunun estetik tutumlu ifadəsidir. Elə düşünürük ki, Mirzə Qədim İrəvaninin yaratdıqları da, bu mənada, bu gün hər birimizə qürur bəxş edən və dəyər baxımından ölçüyəgəlməz qiymətə malik incəsənət xəzinəmizin yaddaqalan incilərindəndir. Bu səbəbdən də onun adı və xatirəsi vəfatından yüz əlli ilə yaxın bir vaxt keçsə də, hər birimizə doğma və əziz olaraq qalmaqdadır.

**Cavid İSMAYILOV**
*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin dekanı, Əməkdar rəssam, dosent*

## Prezident təqaüdünə layiq görülən tələbə



Gənclərin təhsil sahəsində qazandığı uğurlar hər zaman dövlətin diqqət mərkəzində olub. Bu uğurlar içərisində də fərqlənən, əzmi və biliyi ilə seçilənlər isə Prezident təqaüdünə layiq görülməklə həm şəxsi zəhmətinin, həm də təhsilə olan sevginin qarşılığını alır. Belə gənclərdən biri də Cəmilə Babayevadır. O, 688.9 balla Naxçıvan Dövlət Universitetinə qəbul olaraq Kompüter mühəndisliyi ixtisasını seçib və bu nəticəsi ilə Prezident təqaüdünə layiq görülüb.

Cəmilə Babayeva bildirir ki, əldə etdiyi nəticənin arxasında illərlə çəkilən zəhmət, gecə-gündüz oxumaq və ən əsası, məqsədindən əl çəkməmək dayanır. Onun sözlərinə görə, uğurun əsas açarı insanın özünə inamı və istəyi ilə bağlıdır: “Əsas faktor olaraq istək, inam, mübarizə və əl çəkməmək deyə bilərəm. Hər bir insanın içində bir istək, bir hədəf olmalıdır. Mən də öz hədəfimi erkən müəyyən etmişdim və onun üçün mübarizə apardım”.

Kompüter mühəndisliyi kimi çətin, eyni zamanda gələcəyə yönəlik bir ixtisas seçməsi də təsadüfi deyil. O, gələcəkdə texnologiya sahəsində yeniliklərə imza atmaq, ölkədə İT sahəsinin inkişafına töhfə vermək istəyir.

Prezident təqaüdünə layiq görülmək, şübhəsiz ki, hər bir gənc üçün həm sevinc, həm də məsuliyyət hissi yaradır: “Təbii ki, bu təqaüd həm böyük bir sevinc, həm də məsuliyyətdir. Çünki artıq səndən daha çox şey gözlənilir. Bu həm də dövlətin sənə olan etimadıdır. Mən çalışacağam ki, bu etimadı doğruldam”. Onun sözlərinə görə, bu cür mükafatlar gəncləri daha da ruhlandırır, onları daha çox öyrənməyə, yeniliklərə açıq olmağa həvəsləndirir. “Gənclər bilməlidirlər ki, əgər, həqiqətən, çalışsalar, nəticə mütləq olacaq. Hər bir zəhmət gec-tez bəhrəsini verir”, – deyə Cəmilə qeyd edir.

Cəmilə artıq universitet həyatına qədəm qoyub və yeni mərhələnin başlanmasından həyəcan duyur. O, təhsildə fərqlənməklə yanaşı, beynəlxalq layihələrdə iştirak etmək, startap ideyalarını reallaşdırmaq niyyətindədir. “Gələcəkdə öz sahəmdə ixtisaslaşmaq, ölkə üçün faydalı layihələr həyata keçirmək istəyirəm. Hər bir gənc bilməlidir ki, Azərbaycan üçün bilikli, bacarıqlı olmaq ən böyük töhfədir”, – deyə Cəmilə əlavə edir.

## Naxçıvanlı müəllimlər “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif ediliblər



Azərbaycan Respublikasının elm və təhsil naziri 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə bir qrup müəllimi “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif edib. Onlar içərisində Naxçıvandan olan müəllimlər də var.

“Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunan Culfa rayon Saltaq kənd tam orta məktəbinin direktoru ***Sevinc Mustafayeva*** sevincini belə bölüşür: “Kəngərli rayonunun Xok kəndində müəllim ailəsində anadan olmuşam. 2000-ci ildə Naxçıvan Dövlət Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası ixtisasını bitirmişəm. 2007-ci ildən 2009-cu ilin oktyabr ayınadək Culfa rayon Saltaq kənd tam orta məktəbində direktor müavini, 2009-cu ildən isə həmin məktəbdə direktor vəzifəsində işləməyə başlamışam. 2023-cü ildə qrant layihəsinin qalibi olmuşam. Mənim üçün gözlənilməz oldu. Müəllimlər günü ərəfəsində bu cür yüksək ada layiq görülməyim məni qürurlandırdı. Təbii ki, çəkdiyi zəhmətin dəyərləndirildiyini görəndə insan gözəl hisslər keçirir, bir o qədər də məsuliyyətinin daha da artdığını hiss edirsən. Mənə verilən bu mükafat gələcək fəaliyyətim üçün bir stimul olacaq”.

Təltifə layiq görülmüş ***Elmira Hüseynli*** Naxçıvan Şəhər Qızlar Liseyində çalışır. O deyir: “Liseydə kimya fənnini tədris edirəm. 19 illik pedaqoji fəaliyyətim dövründə bir çox uğurlara imza atmışam. Universitetdə oxuduğum illərdə Heydər Əliyev təqaüdünə layiq görülüb, həm bakalavr, həm də magistr təhsilini fərqlənmə diplomu ilə başa vurmuşam. Əlbəttə, bu nailiyyətlərin fonunda döş nişanı ilə təltif olunmağım mənim üçün həm böyük qürur, həm də daha böyük məsuliyyətdir. O an mənim üçün tam bir sürpriz idi, çünki son 5 ildə iki dəfə təhsil naziri tərəfindən fəxri fərman və diploma təltif olunmuşdum. Bu dəfə isə zəhmətimin qarşılığı bir daha dəyərləndirildi”. Elmira Hüseynlinin sözlərinə görə, kimya çətin fənndir. Onu uşaqlara aşağı siniflərdən sevdirməsən, sonrakı illərdə maraq yaratmaq çətin olur. Buna görə də dərslərimdə fərqli metodlardan istifadə edirəm. Hər gün bir təcrübə aparmağa çalışıram. İlk dərsdən etibarən bu təcrübələri mən yox, şagirdlərim aparırlar. Laboratoriyamızı onların maraqlarına uyğun şəkildə qurur, bəzən kiçik sürprizlərlə onları motivasiya edirəm. Məqsədim Vətənini, xalqını sevən gənclər formalaşdırmaqdır.

Şərur şəhər 1 nömrəli tam orta məktəbin müəllimi ***Samirə Rəhimova*** deyir: “Artıq 18 ildir, pedaqoji fəaliyyətlə məşğulam. Azərbaycan dili və ədəbiyyat fənnini tədris edirəm. Bu illər ərzində müəllimlik peşəsinin həm məsuliyyətini, həm də mənəvi dəyərini dərindən hiss etmişəm. Müəllimlik çox şərəfli peşədir. Bizim məsuliyyətimiz, həqiqətən, böyükdür. Çiynimizdə yüzlərlə şagirdin gələcəyi, onların dünyagörüşü və həyata baxışları dayanır. Bu həm məsuliyyət, həm də qürurverici bir hissdir. Bütün çətinliklərə baxmayaraq, mən peşəmi çox sevirəm. Hər şagird mənim üçün ayrı bir dünyadır. Sanki sinfə daxil olanda onlarla ünsiyyət quranda sehrli bir aləmə düşürəm. Hər dərs, hər görüş mənə yeni bir enerji verir. Çalışıram ki, şagirdlərimə bildiklərimi sevə-sevə öyrədim. Onların uğuru mənim üçün ən böyük mükafatdır. Bir müəllim kimi məqsədim, sadəcə, dərs keçmək deyil, həm də uşaqlarda vətənpərvərlik, ədalət, insanlıq kimi dəyərləri formalaşdırmaqdır. Bu, çox vacibdir”.

Naxçıvan Qarnizonu tam orta məktəbin müəllimi ***Türkanə Bağırova*** 2004-cü ildə Naxçıvan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin Riyaziyyat ixtisasını fərqlənmə diplomu ilə bitirib. 2006-cı ildən Naxçıvan Qarnizonu tam orta məktəbində fəaliyyət göstərir. Məktəbdə hərbçi övladları təhsil alırlar:

“Onlara təhsil vermək biz müəllimlər üçün həm qürur hissidir, həm də böyük məsuliyyətdir. Vətənə sədaqətlə xidmət edən, sərhədlərimizi qoruyan hərbçilər övladlarının yüksəkkeyfiyyətli təhsil almasından arxayın olmalıdırlar. Belə təhsil mühitinin yaradılması, müəllimlərin bilik və bacarıqlarının şagirdlərə interaktiv şəkildə, təhsil qanununa uyğun qaydada ötürülməsi biz müəllimlərin öhdəsinə düşür. Məktəbimiz 2024-2025-ci tədris ilini də əvvəlki illərdə olduğu kimi uğurla başa vurmuşdur. Qazanılan bütün nailiyyətlər pedaqoji kollektivin səmərəli və məsuliyyətli fəaliyyətinin nəticəsidir. Fəaliyyətim nəzərə alınaraq Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən “Qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunmuşam. Bu təltif həm mənə, həm də məktəbimizin pedaqoji kollektivinə verilən böyük dəyərdir”.

Şahbuz rayonunun Badamlı qəsəbə tam orta məktəbin direktoru ***Hilal Paşayev:*** “27 illik pedaqoji təcrübəyə malikəm. Tarix ixtisasını tədris edirəm. Məktəbimizdə ötən tədris illərində olduğu kimi, cari tədris ilində də məzunlarımız arasında “Fərqlənmə attestatı” və “Qızıl nişan”la təltif edilən şagirdlər, həmçinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə keçirilmiş “Ən yaxşı təqdimat” müsabiqəsində III yerin qalibi olan və Prezident təqaüdünə layiq görülən şagirdlərimiz var.

Hər bir müəllim üçün, hər bir məktəb direktoru üçün təltif olunmaq böyük qürur və məsuliyyət hissi yaradır. Mənim də 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü ərəfəsində Azərbaycan Respublikasının “Qabaqcıl təhsil işçisi” döş nişanına layiq görülməyim dövlətin təhsil sahəsində çalışanlara göstərdiyi yüksək qayğının bariz nümunəsidir. Gənc nəslin təlim-tərbiyəsində iştirak etmək və bu fəaliyyətə görə təltif olunmaq insanda böyük fəxarət hissi yaradır. Bir müəllim, bir məktəb direktoru kimi çalışacağam ki, rəhbərlik etdiyim pedaqoji kollektivlə birlikdə gələcəkdə də yüksək nəticələr əldə edək və ölkəmizin təhsil nailiyyətlərinə öz töhfəmizi verək”.

## Naxçıvanlı idmançı MDB Oyunlarının mükafatçısı olub



Ölkəmizin ev sahibliyi etdiyi III MDB Oyunları uğurla davam edir. Azərbaycan idmançıları da bu yarışmada müxtəlif növlər üzrə yüksək nəticələr göstərir. Onlar arasında Naxçıvan təmsilçiləri də var. Qeyd edək ki, boks üzrə keçirilən yarışda çıxış edərək qalib adı qazanan və bürünc medala layiq görülən Haqverdi Həsənov ona göstərilən etimadı doğrulda bilib.

Yarış barədə təəssüratlarını bölüşən Haqverdi Həsənov hazırlıq prosesi və keçirdiyi döyüşlər haqqında danışdı:

“Bu yarışa çox güclü hazırlaşmışdım. İlk dəfə idi ki, Azərbaycan MDB Oyunlarına ev sahibliyi edirdi və bu biz gənc idmançılar üçün həm qürur, həm də məsuliyyət idi”.

Qeyd edək ki, həmyerlimiz ilk görüşdə Belarus idmançısı ilə qarşılaşıb. Döyüşün çox çətin keçdiyinə baxmayaraq, sona qədər mübarizə aparıb və 4:1 hesabı ilə qalib gəlib.

Növbəti döyüşdə isə Rusiya təmsilçisi ilə rinqə çıxıb: “İkinci rəqibim Rusiya idmançısı idi. Təəssüflər olsun ki, bəzi anlaşılmazlıqlara görə, bu görüşdə məğlub oldum. Lakin yarış mənim üçün böyük təcrübə oldu və nəticədə, fəxri kürsünün 3-cü yerinə layiq görüldüm”.

Haqverdi Həsənov gələcəkdə daha böyük uğurlar əldə etməyi və Azərbaycan Bayrağını zirvədə dalğalandırmaq istədiyini bildirdi.

Oxucularımızın diqqətinə onu da çatdıraq ki, bu qələbə Haqverdinin il ərzində qazandığı dördüncü uğurudur. Belə ki, məşqçi Elnur Kərimlinin yetirməsi 2025-ci ildə Avropa üçüncüsü, ölkə birincisi və beynəlxalq turnirin qalibi olub.

## Naxçıvanlı məktəblilər VIII Respublika Robot Olimpiadasında qalib olub

2025-2026-cı tədris ilinin ilk uğuru olaraq naxçıvanlı məktəblilər VIII Respublika Robot Olimpiadasında qalibiyyət qazanıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən STEAM Təlim-Tədris Mərkəzinin “Heirs of East” komandası yeniyetmə və gənclər arasında keçirilən VIII Respublika Robot Olimpiadasında Robosport kateqoriyası üzrə qalib olub. Biz də redaksiyamızda həmin məktəblilərlə görüşüb həmsöhbət olduq.



Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin şagirdi Amin Əlizadə deyir ki, komandamız WRO 2025 yarışında Robosport kateqoriyası üzrə xüsusi robot hazırlayıb. O əlavə edir: “Biz bu dəfə robotu Lego dəstələrindən deyil, tamamilə öz dizaynımız əsasında ərsəyə gətirdik. Bunun üçün 3D printerdən istifadə etdik ki, həm möhkəm, həm də davamlı bir model ortaya çıxsın. Mexaniki hissələri yığmaq, hər detalı düzgün yerləşdirmək və proqramlaşdırmanı həyata keçirmək heç də asan olmadı. Bəzən səhvlərlə üzləşirdik, amma hər dəfə təkrar sınaqlardan keçərək nəticəni daha da təkmilləşdirirdik. Bu müddət ərzində ən böyük gücümüz isə komanda olaraq bir-birimizə verdiyimiz dəstək oldu”. Onun sözlərinə görə, zəhmətinin bəhrəsini görmək ən xoş an olub: “Azərbaycan üzrə I yeri qazandığımızı eşidəndə sevincimiz sözlə ifadə olunmaz dərəcədə böyük idi. Bu uğur bizi həm qürurlandırdı, həm də gələcək məqsədlərimiz üçün daha da ruhlandırdı. İndi əsas hədəfimiz Sinqapurda keçiriləcək final mərhələsində ölkəmizi ən yüksək səviyyədə təmsil etməkdir”.

Komandanın digər üzvü Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Murad Kərimov bildirdi ki, WRO-nun Robosport kateqoriyasında I yer qazanmağımız komandamız üçün böyük fəxrdir. Bu uğur bizim aylarla davam edən zəhmətimizin, səbrimizin və komanda birliyimizin bəhrəsidir. Komandamızda hər bir üzv öz üzərinə düşən məsuliyyəti yüksək səviyyədə yerinə yetirdi. Müsahibimiz deyir ki, bu nailiyyətimizin qazanılmasında müəllimlərimizin və mentorlarımızın rolu danılmazdır. Onların biliyi, təcrübəsi və dəstəyi bizim üçün ən böyük dayaq oldu. Valideynlərimiz daim yanımızda oldu və bizə güvən verdilər. Qazandığımız uğur bizim üçün həm sevinc, həm də böyük məsuliyyət deməkdir. Çünki bu nəticə ilə bizə Azərbaycanı beynəlxalq arenada təmsil etmək şansı verildi. Artıq qarşıda bizi daha böyük bir sınaq gözləyir. Sinqapurda keçiriləcək beynəlxalq mərhələdə ölkəmizin bayrağını dalğalandırmaq”.

Qalib komandanın digər bir üzvü Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Tayfun İmanlı söhbətimizə qoşularaq bildirdi: “Ötən il də bu yarışda iştirak etmişdim və az fərqlə üçüncü yeri tutmuşdum. Həmin nəticə məni ruhdan salmadı, əksinə, daha da motivasiya etdi. Bu il daha sistemli şəkildə hazırlaşdım, strategiyamı yenilədim və komanda ilə daha koordinasiyalı işlədim. Keçənilki təcrübə mənə həm texniki biliklər, həm də psixoloji dözümlülük baxımından böyük üstünlüklər qazandırdı. Bu uğurumuzda müəllimlərimizin və mentorlarımızın, xüsusilə Fuad Babayev və Muxtar Nəzərovun rolu danılmazdır. Onların verdiyi bilik, göstərdiyi istiqamət və davamlı dəstəyi bizim üçün güclü dayaq oldu. Komandamızın hər bir üzvü bu uğur üçün fədakarcasına çalışdı və nəticədə, bu möhtəşəm qələbəni əldə etdik. Bu nəticə bizə Azərbaycanı beynəlxalq səviyyədə təmsil etmək imkanı yaratdı. Gələcək planlarımız bu uğurla bitmir. Biz texnologiya və robototexnika sahəsində biliklərimizi daha da genişləndirməyi, yeni layihələr üzərində işləməyi hədəfləyirik. Bu qələbə bizim üçün bir başlanğıcdır daha böyük hədəflərə doğru əzmlə irəliləyirik”.

Biz də məktəblilərimizə gələcək yarışlarda uğurlar arzu edirik. Həmçinin qeyd edək ki, qalib komandamız bu il noyabrın 26-28-də Sinqapurda keçiriləcək XXII Dünya Robot Olimpiadasında ölkəmizi təmsil edəcək. Milli Gimnastika Arenasında 3 gün davam edən olimpiadada 8-19 yaşadək yeniyetmə və gənclər 4 kateqoriya – “Robomission”, “Robosports”, “Future innovators”, “Future engineers” üzrə yarışıblar. Ümumilikdə, bu kateqoriyalar üzrə ölkənin 20 şəhər və rayonundan 252 komanda qeydiyyatdan keçib. Komandaların hazırlıq səviyyəsinin monitorinqindən sonra 153 komanda final mərhələsində iştirak etmək hüququ qazanıb.

**“Şərq qapısı”**

Yeni nəşrlər

# Naxçıvan teatrında rəssam işi barədə ensiklopedik nəşr işıq üzü görüb

*Tarixin bütün dövrlərində Naxçıvan özünün yetirdiyi dövlət xadimləri, elm və sənət adamları ilə ölkəmizə öz töhfələrini verib. Dövlətçiliyimizin intişar tapdığı bu qədim diyara Ulu Tanrı öz səxavətini əsirgəmədiyindəndir ki, Naxçıvan ictimai-siyasi proseslərin fonunda həm də mədəniyyətin, incəsənətin çox güclü inkişaf etdiyi məkan kimi tanınıb. Bu qədim yurd yeri Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Məmməd Araz, Bəhruz Kəngərli kimi saymaqla qurtarmayan görkəmli ədəbiyyat və incəsənət xadimlərinin Vətənidir. Onlar və onların həmfikirləri, ideya və məslək dostları Naxçıvanın ən cəfakeş insanları olublar; xalqın maariflənməsi üçün əllərindən gələni ediblər.*




1883-cü ildə bünövrəsi qoyulan Naxçıvan teatrı isə adlarını çəkdiyimiz və çəkmədiyimiz aydınların vahid məqsəd uğrunda mübarizəsində mühüm rol oynayıb. Dünya və Azərbaycan ədəbiyyatının ən gözəl nümunələrini səhnələşdirən, bu vasitə ilə həm xalqın maariflənməsinə, həm də insanların asudə vaxtlarının səmərəli keçməsinə çalışan teatr həmişə yerinə yetirdiyi funksiyanın xalqa xidmət olduğunu diqqətdə saxlayıb.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanovun AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 23 may 2025-ci il tarixli Qərarı ilə çapa tövsiyə olunmuş "Naxçıvan teatrında rəssamlıq işi" monoqrafiyası bu baxımdan dəyərli bir nəşrdir. Filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayevin kitaba yazdığı ön sözdə və kitabın giriş fəslində bu barədə geniş məlumat verilir.

Qeyd edək ki, gərgin zəhmətin bəhrəsi olan kitabın müəllifi Naxçıvan teatrının fəaliyyətini uzun illərdir araşdırmaqla məşğuldur. Bu istiqamətdə onun 2 kitabı, 8 monoqrafiyası işıq üzü görüb; o həm də 200-dən artıq elmi-publisistik məqalənin müəllifidir.

Yeni nəşr daha bir istiqamətdən diqqəti cəlb edir. Məlumdur ki, teatr kollektiv sənətdir. Yəni teatrda səhnəyə qoyulan tamaşada müəllif ideyasının açılması, izləyicilərə çatdırılmasında rejissordan tutmuş ən kiçik texniki işçiyə qədər hər birinin özünəməxsus yeri var. Ona görə də Əli Qəhrəmanovun bu kitabı Naxçıvan teatrının rəssamlarına həsr etməsi təbiidir.

Elmi redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov olan monoqrafiya giriş, 5 fəsil, nəticə və istifadə edən ədəbiyyat siyahısından ibarətdir.

Müəllif "XIX əsrin sonu, XX əsrin əvvəlində Naxçıvan teatrında rəssamlıq sənəti (1883-1920)" fəslində realist rəssam Bəhruz Kəngərlidən bəhs edir: "Bəhruz Kəngərli milli səhnə qrafiyanın bünövrəsini qoyanlardan, Azərbaycanda ilk peşəkar teatr rəssamlarından biridir. O, həssas rəng duyumu, isti və koloritli rənglərdən məharətlə istifadə etməklə Naxçıvan teatrının səhnəsində 1912-ci ildən ömrünün sonunadək tamaşaya qoyulan əsərlərə irihəcmli panolar çəkmiş, səhnə tərtibatı və geyim eskizləri vermişdir.

Ardınca "Naxçıvan teatrında Bəhruz Kəngərli badii irsinin davamçıları (1920-1940)" adlı fəsildə müəllif Adil Qazıyev, Şəmil Qazıyev, Nağı Nağıyev haqqında məlumat verir.

Yaxşı hal kimi o da qeyd olunmalıdır ki, müəllif xronoloji ardıcıllığı gözləməklə yanaşı, teatrda çalışan rəssamların yaradıcılıq xüsusiyyətlərini təhlilə cəlb edir; onların bu tamaşadan digər tamaşaya keçidindəki yeni çalarları ortaya qoyur. Təcrübəli teatr xadimlərinin onların işinə verdikləri qiyməti oxucuya çatdırır. Məsələn, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev Adil Qazıyev haqqında yazıb: "Xalqımızın uzaq-yaxın keçmişdə yaratdığı bədii irsə çox fərqli və dərindən elmi münasibət bildirən Adil Qazıyev müxtəlif illərdə qədim kitab mədəniyyətimizə və xəttatlıq sənətinə, üslublaşdırılmış milli xalq təsviri sənətinə, dekorativ-tətbiqi sənətə həsr olunmuş tədqiqatları ilə sənətşünaslıq elmimizi zənginləşdirir".

Müəllif bununla Adil Qazıyevin teatr rəssamı kimi fəaliyyəti ilə yanaşı, həm də onun bir tədqiqatçı rəssam olduğunu da ortaya qoyur.

Kitabın digər bir fəsli Naxçıvan teatrının İkinci Dünya müharibəsi və sonrakı mərhələdəki fəaliyyətində rəssamlıq sənətinə həsr olunub. Əli Qəhrəmanov 1941-1963-cü illərdə teatr rəssamlarının həmin dövr üçün xarakterik olan yaradıcılıq yolundan danışaraq bildirir ki, Naxçıvan teatrı müharibənin ilk aylarında ölkəmizin digər qabaqcıl teatrlarının təcrübələrindən istifadə edərək tamaşalarına kiçik səhnəciklər və kompozisiyalar göstərirdi. Bu kompozisiyalarda cəsur, alicənab, vətənpərvər adamlar təsvir olunurdu. Həmin əsərlər sırasında olan "Cinayətin izi ilə" (O. Xəlilov) tamaşası barədə bəhs edən Əli Qəhrəmanov yazır: "Tamaşada müsbət xarakterlərin həyatının qabarıq şəkildə canlandırılması üçün rejissor İbrahim Həmzəyev və tamaşaya bədii tərtibat verən rəssam Məmməd Qasımov xeyli əmək sərf etmişlər. O dövrdə yazılmış resenziyalarda qeyd olunduğu kimi rejissor İbrahim Həmzəyev və rəssam Məmməd Qasımov düzgün istiqamət verməyi bacaran, bədii tərtibatdan yerli yerində istifadə edən rejissor və rəssam həm də geniş dünyagörüşə, mühiti dərindən dərketmə qabiliyyətinə malik sənətkarlar idilər".

Müəllifin gəldiyi bir qənaətlə teatrşünaslar, yəqin ki, qeyd-şərtsiz razılaşarlar: Naxçıvan teatrının rəssamları tamaşalarda yalnız həyat həqiqətini real boyalarla əks etdirməklə kifayətlənmir, eyni zamanda tamaşanın bədii tutumu haqqında da düşünürdülər. Onlar hazırladıqları tamaşalarda özlərinin sənətkarlıq bacarıqları ilə yanaşı, humanist fikirlərini, estetik ideallarını da aydın hiss etdirirdilər.

Bu fikirləri monoqrafiyanın "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında rəssamlıq sənəti (1964-1990)" fəslində müəllif bir qədər də genişliyi ilə oxucuya çatdırır. Məmmədəli İsmayılov, Yuran Məmmədov, Mircəlil Seyidov, Əli Səfərov haqqında bəhs olunan yazılarda Əli Qəhrəmanov bir sənətşünas kimi onların yaradıcılığını geniş təhlilə cəlb edir.

"Müstəqillik illərində Naxçıvan teatrında rəssamlıq sənəti (1991-2024)" fəslində oxuyuruq: "Ümummilli Lider Heydər Əliyev 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işləyərkən teatrın kollektivi qarşısında mühüm və təxirəsalınmaz vəzifələr qoydu. Teatrın yaradıcı heyəti daha ciddi sənət axtarışına başladı. Repertuarına daxil etdiyi əsərlərə müasirlik mövqeyindən yanaşdı... Əbülfəz Axundov, Hüseynqulu Əliyev, Səyyad Bayramov kimi rəssamların fəaliyyətləri nəticəsində tamaşaya qoyulan əsərlər müəllif ideyasının açılmasına öz müsbət təsirini göstərdi".

Yaxşı hal kimi onu da qeyd edək ki, kitab boyu müəllif həm Naxçıvana ölkə paytaxtından gələn təcrübəli teatrşünasların, teatrın qastrol səfərlərində olarkən tamaşaları izləyən sənət adamlarının Naxçıvan teatrı həm də teatrın konkret olaraq rəssamlarının fəaliyyəti, onların yaradıcılıq diapozanları haqqında dedikləri fikirləri oxucuya təqdim edir.

Mədəniyyət və incəsənətimizə, Azərbaycan teatr sənətinə böyük və qiymətli töhfə olan "Naxçıvan tetarında rəssamlıq işi" adlı monoqrafiya haqqında çox qısa qeydlərlə kifayətlənməyi lazım bildik. Müəllifə yeni yaradıcılıq uğurları diləməklə oxuculara bu qiymətli kitabı oxumağı arzulayırıq.

✍ **Muxtar MƏMMƏDOV**

## "Fövqəladə hallarda davranış qaydaları" mövzusunda maarifləndirici tədbir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə "Şərq qapısı" qəzetinin və Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşları iştirak edib.

Tədbiri giriş sözü ilə "Şərq qapısı" qəzetinin baş redaktorunun müavini Məmməd Babayev açaraq tədbirin məqsədindən danışıb. Bildirilib ki, bu kimi görüşlərin əsas məqsədi fövqəladə hallarda davranış qaydaları, yanğın və zəlzələ zamanı təhlükəsizlik tədbirləri barədə məlumatlılığı artırmaqdır.

Daha sonra Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin məsul əməkdaşları mövzu ilə bağlı çıxış ediblər.

Nazirliyin Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Mirtaleh Seyidov fövqəladə hallar zamanı vətəndaşların hüquq və vəzifələri, yaşayış binalarında qaz cihazlarından təhlükəsiz istifadə, dəm qazı təhlükəsindən qorunma və yanğın təhlükəsizliyi ilə bağlı qaydalar barədə ətraflı məlumat verib.

Şöbənin baş inspektoru, daxili xidmət mayoru Turan Şahhüseynov və baş inspektor, daxili xidmət leytenantı Nurlan Sadiqov isə zəlzələ və yanğın zamanı davranış qaydaları, müəssisələrdə ilkin yanğınsöndürmə vasitələrinin düzgün tətbiqi, könüllü yanğın dəstələrinin fəaliyyəti və təxliyə zamanı görüləcək tədbirlər haqqında çıxış ediblər.

Tədbirdə iştirakçıların sualları cavablandırılıb, fövqəladə hallarla bağlı slayd və videoçarxlar nümayiş etdirilib.

Sonda Məmməd Babayev çıxış edərək Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına təşəkkürünü bildirib.

## "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu Naxçıvanda azarkeşlərlə görüşüb







Milli komandaların oyunları ilə əlaqədar Misli Premyer Liqasında yaranmış fasilədən istifadə edən "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu Naxçıvan Muxtar Respublikasına səfər edib.

Əsas komandanın futbolçuları və məşqçi heyəti Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər.

Səfər çərçivəsində komanda üzvləri Naxçıvan Muxtar Respublika Stadionunda azarkeşlərlə görüşüb, akademiyanın azyaşlı futbolçuları ilə əyləncə xarakterli oyun keçiriblər.

Sonra xatirə şəkilləri çəkdirilib.

## Naxçıvanlı idmançılar MDB Oyunlarını 3 medalla başa vurdu



Azərbaycanın 15 yaşadək qızlardan ibarət voleybol millisi ölkəmizin ev sahibliyi etdiyi III MDB Oyunlarında Özbəkistan millisi ilə üçüncülük görüşünə çıxıb. Voleybolçularımız rəqibə 3:1 hesabı ilə qalib gələrək bürünc medalların sahibi olublar.

Komandanın heyətində çıxış edən naxçıvanlı voleybolçular Ülviyə Orucova, Kəmalə Mahmudlu və köməkçi məşqçi qismində Pərvin Səfərli də bürünc medal sevinci yaşayıblar.

Qeyd edək ki, bundan öncə naxçıvanlı idmançılardan boksçu Haqverdi Həsənov da bürünc medal qazanmışdı.

### İtmişdir

Şərur rayonu, Dəmirçi kənd sakini Qasımova Arifə Abdulla qızının adına olan JN-90018$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məmmədli Lalə Ceyhun qızının adına olan Yeni Azərbaycan Partiyası vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhidməmməd kəndində yaşamış Həsənov Məmməd Vəli oğlunun adına olan JN-105 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Üstüpü kənd sakini İsmayılov Sübhan İsmayıl oğlunun adına olan JN-122$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kənd sakini Bağırov Məmmədsadıq Mehdi oğlunun adına olan JN-503$^{A}$ nömrəli, 10707018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 20 yanvar küçəsi, döngə 1, ev 14 ünvanında Mirzəyeva (Ağayeva) Fatma Səttar qızının adına olan 2626 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Yengicə kəndində Ağayev Fariz İslam oğlunun adına olan A-025182 nömrəli torpaq sahəsinin planı və ölçüsü, JN-591 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı və JN-962$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yuxarı Uzunoba kənd sakini Hüseynov Sahil Allahverdi oğlunun adına olan JN-045$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Hümbətli Zamiq Seyfəddin oğlunun adına olan 67-BG-554 dövlət nömrə nişanlı avtomobilin BD-414353 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Mahmudov Rzaqulu Behbud oğlunun adına olan 1293$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Qasımov Əbülfəz Abbas oğlunun adına olan JN-2100 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayon sakini Zeynalov Kamal Məmməd oğlunun adına olan 18.05.2021-ci il tarixli A-025761 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 252

Nömrəyə məsul: Bülbül Quliyeva, Elnurə Cəfərova, Zəhra Vəliyeva
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.